Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 47 (7774) CÜMƏ AXŞAMI, 1 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Qafqazın ən böyük sənaye kompleksi

## Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələr məhsullarını "Made in Azerbaijan" brendi ilə ixrac edir

**Bir vaxtlar bu ərazi beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli məkanlarından biri hesab olunurdu. Bura təkcə ekoloji tarazılığın pozulduğu ərazi deyil, yaşayış üçün də çox təhlükəli yer sayılırdı. Lakin müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi strategiyasına uyğun olaraq ərazidə öncə abadlıq işləri aparıldı və sonra paytaxt Bakıdan 32.5 km məsafədə yerləşən bu məkanda nəhəng infrastruktur layihələri reallaşdırıldı. İndi bu ərazidə Qafqazın ən böyük sənaye kompleksi olan Sumqayıt Kimya Sənaye Parkı yerləşir.**

### 16 rezident, 2.7 milyard dollarlıq investisiya

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir və bu sahədə ölkəmiz zəngin ənənələrə malikdir. Müasir dövrdə sənaye siyasəti rəqabətqabiliyyətlilik, səmərəlilik və ekoloji təhlükəsizlik meyarlarına uyğun yüksək texnologiyaların tətbiqinə yönəlməli, elmi araşdırmalarla üzvi surətdə bağlı olmalı, yeni çağırışlara, yeni yanaşmalara əsaslanmalıdır.

Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanına əsasən yaradılan Sumqayıt Kimya Sənaye Parkının ərazisi 506 hektardır. Ümumi sənaye zonası 450 hektar, sosial zona 21 hektar, ümumi məskunlaşma isə 74 faizdir.

Təməli 2013-cü ilin oktyabr ayında qoyulan Sumqayıt Kimya Sənaye Parkının 16 rezidenti var. Rezidentlər 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azad olunublar. Bu şirkətlər tərəfindən sənaye parkına ümumilikdə 2.7 milyard dollar investisiya yatırılması gözlənilir. Ötən ilin dekabrında burada daha 4 müəssisə fəaliyyətə başlayıb, eləcə də 3 müəssisənin təməli qoyulub. Hazırda parkda 6 müəssisə fəaliyyət göstərir ki, onların istehsal etdiyi bir sıra məhsullar "Made in Azerbaijan" brendi adı altında xaricə də ixrac edilir. Elə biz də həm istehsal prosesi, həm də təməli qoyulan müəssisələrdə aparılan tikinti-quruculuq işləri ilə yaxından tanış olmaq üçün Sumqayıt Kimya Sənaye Parkına yollandıq.




### İldə 72 növdə 30 min ton sürtkü yağları istehsal edilir

Sənaye parkında yeni fəaliyyətə başlayan müəssisələrdən biri "Alco Lubricant" MMC-nin Sürtkü Yağları Zavodudur. 2016-cı ildə sənaye parkının rezidenti statusunu alan şirkət parkın 2,5 ha torpaq sahəsində Almaniya texnologiyası əsasında ildə 72 növdə 30 min ton sürtkü yağlarını istehsal edir.

Bu yağlar əsasən avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetika sahələrində istifadə olunur. Şirkət xammalı Rusiya və Avropa ölkələrindən, eləcə də "SOCAR"dan alır. Alınan baza yağlarına müxtəlif qatqılar qatmaqla yeni məhsul istehsal edilir.

### Avtomobil və gəmilər üçün sürtkü yağları necə hazırlanır

Baza yağları vaqonlarla düz zavodun ərazisinə gətirilərək çənlərə doldurulur. Laboratoriyada yoxlanıldıqdan sonra blenderlərə ötürülür. Zavoda gələn yağların tərkibi bəzən çox qatı olur və bəzən də şaxtalı havada qatılaşır. Ona görə də ərazidə buxar-istilik məntəqəsi də inşa olunub ki, çənlərdəki və blenderdəki yağları müəyyən temperaturda saxlasınlar.

Burada baza yağlarına bəzi qatqılar qatıldıqdan sonra müəyyən temperaturda qarışdırılaraq bişirilir. Məhsulun tam hazır olması laboratoriyanın verdiyi analiz cavablarından sonra bilinir. İstehsal olunacaq yeni yağların bütün parametrləri uyğun gələnə qədər baza yağları blenderdə 4-6 saat qarışdırılır. Ən maraqlısı odur ki, bütün bu sistem avtomatik həyata keçirilir, prosesdə insan əməyindən istifadə olunmur. Proses kiçik monitor vasitəsi ilə idarə edilir. Elektron tapşırıqlar verildikdən sonra sistem işə düşür və tam yekunlaşdıqdan sonra siqnal verir. Buna baxmayaraq zavodda ilkin mərhələdə 100 nəfər işçi çalışır.

Məhsul tam hazır olduqdan sonra birbaşa daxildəki hazır məhsul çənlərinə vurulur. Bundan sonra yağlar paketləmə məntəqəsinə ötürülür.

*Ardı 4-cü səh.*

## Azərbaycan bütün sahələrdə Misirlə sıx əlaqələr qurmaq niyyətindədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahimin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Adel İbrahim Ahmed İbrahim fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Adel İbrahim Ahmed İbrahim etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycanın çox gözəl ölkə olduğunu deyən Adel İbrahim Ahmed İbrahim burada özünü evindəki kimi hiss etdiyini qeyd etdi, Misir xalqının Azərbaycana və Azərbaycan xalqına səmimi hisslər bəslədiyini bildirdi. Səfir hər iki ölkə rəhbərliyinin dəstəyi ilə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev ölkəmizin Misirlə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və bu ölkə ilə daha yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına önəm verdiyini dedi. Dövlət başçısı ölkələrimiz arasında qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq bu yaxınlarda Qahirə şəhərində Azərbaycan-Misir Hökumətlərarası Birgə Komissiyasının iclasının uğurla keçirilməsindən məmnunluğunu ifadə etdi. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Misirin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda qarşılıqlı dəstək nümayiş etdirdiklərini bildirdi, mövcud siyasi dialoqun səmərəli şəkildə davam etdirilməsinin önəmini vurğuladı. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün iqtisadi sahədə daha çox işlərin görülməsinin vacibliyini qeyd edən dövlət başçısı bu sahədə böyük imkanların mövcud olduğunu bildirdi. Ölkələrimizin qarşılıqlı idxal-ixrac potensialından faydalana biləcəyini deyən Prezident İlham Əliyev həmçinin sərmayə imkanlarının araşdırılmasının və hər iki ölkədən olan şirkətlərin fəaliyyəti üçün lazımi şərtlərin yaradılmasının əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Azərbaycanın bütün sahələrdə Misirlə sıx əlaqələr qurmaq niyyətində olduğunu deyərək iki ölkə arasında turizm sahəsində əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparıldığını, insanların daha müntəzəm səyahətlərinin təşkil edilməsi üçün birbaşa uçuşların yaradılmasının önəminə toxundu.





Prezident İlham Əliyev səfir Adel İbrahim Ahmed İbrahimin Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında mövcud olan dost münasibətlərinin inkişafına öz töhfəsini vermək üçün səylərini əsirgəməyəcəyinə əminliyini bildirdi.



## Regionun neft-qaz ixrac mərkəzi

### Səngəçal terminalından boru kəmərlərinə karbohidrogenlərin vurulması davam edir

Səngəçal terminalından "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" neftinin, qazının və kondensatının ixrac kəmərlərinə vurularaq dünya bazarlarına göndərilməsi ahəngdar şəkildə davam edir. Karbohidrogenlər terminala sözügedən dəniz yataqlarından çəkilmiş sualtı boru xətləri ilə çatdırılır.

Səngəçal terminalı bir neçə qlobal ixrac neft və qaz kəmərinin öz başlanğıcını götürdüyü ünvandır. O cümlədən, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin baş nasos stansiyası burada yerləşir. BTC-nin Səngəçaldan başlanan 1768 kilometrlik yolu üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçir. BTC-yə AÇG-nin nefti və "Şahdəniz"in kondensatı vurulur. Keçən il terminaldan təqribən 283 milyon barel neft və kondensat ixrac edilib. Bunun 253 milyon bareldən çoxu BTC, 28 milyon bareli Qərb İxrac Boru Kəməri (QİBK) vasitəsilə göndərilib. Səngəçaldan eləcə də 2 milyon barel kondensat ayrıca kəmərlə ixrac olunub.

*Ardı 4-cü səh.*

## Azərbaycan adambaşına düşən sərmayənin həcminə görə də öndədir

Kapital qoyuluşu çox həssas məsələdir. Odur ki, dünya iqtisadiyyatında baş verən qlobal problemlər digər sahələr kimi investisiya qoyuluşuna da mənfi təsir göstərir. Çünki investorlar qazanc əldə edəcəklərinə əmin olmadıqları sahəyə və ya ölkəyə kapital qoymağa risk etmirlər.

Azərbaycanda olan münbit investisiya mühiti isə xarici kapitalı özünə cəlb etməkdə davam edir. Buna səbəb ölkəmizdə xarici sərmayənin qorunması üçün mükəmməl hüquqi bazanın olması və onun daim təkmilləşdirilməsidir. Digər tərəfdən, artıq 24 ildir ki, Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bu da investorlar üçün çox mühüm şərtdir. Nəticədə ölkəmiz nəinki MDB-də, hətta Şərqi Avropa ölkələri arasında investisiya mühitinin münbitliyinə və sərmayə qoyuluşunun cəlbediciliyinə görə fərqlənir.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransında bu barədə deyilmişdir ki, on dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayələrdir. Adambaşına düşən sərmayənin həcminə görə, Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir.

Yeri gəlmişkən qeyd edək ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulub. Keçən il də mövcud problemlərə baxmayaraq, istər xarici, istərsə də yerli sərmayənin qoyuluşu davam edib - ölkəmizə 14,6 milyard dollar sərmayə yatırılıb. Üstəlik, cari ildə də bu qədər investisiyanın yatırılması proqnozlaşdırılıb.

İqtisadiyyatın kapitallaşması ölkənin gəlirliyinə də müsbət təsir göstərir. Belə ki, xarici və yerli sərmayənin yatırılması sayəsində mümkün olan inkişaf nəticəsində ölkəmizin valyuta ehtiyatları 42 milyard dollara çatıb. Ümumilikdə isə son 14 ildə valyuta ehtiyatlarımız 23 dəfə artıb. Bununla bərabər, onun qorunması da nəzərə alınıb.

Məhz kapital qoyuluşu hesabına son 14 ildə ölkəmizdə 30 elektrik stansiyası tikilib. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Burada bir məqamı xüsusilə qeyd etmək lazımdır: əgər 2004-cü ilədək Azərbaycan daxili tələbatı ödəmək üçün elektrik enerjisi idxal edirdisə və hazırda daxili tələbatı tam ödəməklə enerji ixrac edirik.

Hər bir ölkənin inkişafında mükəmməl sosial infrastrukturun olması şərtdir və qeyd edək ki, bu istiqamətdə bütün layihələr də gəlirli olmur. Buna baxmayaraq, Azərbaycanda ötən dövr ərzində mükəmməl sosial infrastruktur yaradılıb. Məsələn, 7 aeroport tikilib. Onlardan 6-sı beynəlxalq aeroportdur. Əvvəllər isə Azərbaycanda təkcə Bakı Beynəlxalq Aeroportu fəaliyyət göstərirdi. İndi paytaxtla bərabər, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala aeroportlarının da beynəlxalq statusu var və onlar müxtəlif ölkələrə aviasiya reysləri həyata keçirir. Yaxud götürək avtomobil yollarını. Son 14 ildə Azərbaycanda 12 min 300 kilometr avtomobil yolu çəkilib. Cari ildə bu rəqəmin 15 min kilometrə çatacağı gözlənilir.

2018-ci ilə gəldikdə, Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, yanvar ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 960,3 milyon manat vəsait yönəldilib. Bu vəsaitin 801,9 milyon manatı məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunub.

Ölkədə sahibkarlığın inkişafını göstərən amillərdən biri də onlar tərəfindən iqtisadiyyata yatırılan kapital qoyuluşudur. Bu onu göstərir ki, Azərbaycanda mükəmməl sahibkarlıq sinfi formalaşıb və ölkənin iqtisadi inkişafında önəmli rol oynayır. Hesabat dövründə yatırılan ümumi sərmayənin 80,5 faizi qeyri-dövlət sektoruna məxsusdur.

Ölkəmizdə xarici investisiya üçün münbit şəraitin olması cari ilin ilk ayında da özünü göstərir. Belə ki, yanvar ayında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 559,8 milyon manat vəsait yönəldilib. Həmin vəsaitin 408,7 milyon manatı Böyük Britaniya, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, Yaponiya, ABŞ, Norveç sərmayədarlarına məxsusdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Ağ tüstü"nün qara zəhəri

### Siqaretə qarşı mübarizə Azərbaycanda dövlət siyasətinin prioritetlərindən birinə çevrilir



*...Heç kimin ağlına da gəlməzdi ki, 500 il əvvəl okeanın o tayından gəmi ilə Avropaya üzən "qərib" bitki nə vaxtsa bəşəriyyətin kabusuna çevriləcək. Avropalı səyyah Xristofor Kolumb heç özü də bilmirdi ki, hinduların ona hədiyyə etdikləri bir bağlama yarpaq nədir. Onun ekspedisiyası əslində, qızıl axtarışı ilə Amerikaya gedib çıxmışdı. Amma tapdığı "nemət" zaman keçdikcə insanlar üçün nəinki qızıldan, hətta canlarından da "əziz" oldu. Elə "əziz" ki, onların ömrünə şərik olsa belə, insanlar onu atmadılar...*

### XVII əsrdən başlanan ölüm erası...

XV əsrin sonlarından başlayaraq avropalılar ilk dəfə tütün gördülər və oradan da bu bitki dünyanın digər yerlərinə ayaq açdı. Tütünün becərilmə tarixinə nəzər saldıqda məlum olur ki, indiki tütün kolu təxminən eramızdan 6 min il əvvəl formalaşıb və 30 min il öncə isə hindular çeynəməklə, çəkməklə və s. formada ondan istifadə ediblər. Avropalılar tütün yarpağı ilə tanışlıqdan cəmi 20-25 il sonra kultivasiya yolu ilə onu əkməyə başlayıblar. İlk tütün plantasiyası da elə Avropada - ispanlar tərəfindən Santo-Dominqo adasında salınıb. 1620-ci ildə isə İspaniyada (Sevilyada) ilk tütün emalı fabriki yaradılıb, beləliklə də dünyada siqaret erası - ölüm erası başlayıb.

Krım müharibəsi zamanı (1853-1856-cı illər) türk və rus əsgərləri də siqaretdən istifadə etməyə başlayıblar. Onlar tütünü barıtın kağız gilizinə büküb çəkirmişlər.

Müharibədə müttəfiq kimi iştirak edən ingilis və fransız əsgərləri arasında da bu adət yayılıb. Sonra bu əsgərlər yeni öyrəndikləri vərdişləri öz ölkələrinə də aparıblar, oradakıları da tütünlə yaxından "tanış" ediblər.

*Ardı 7-ci səh.*

# Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# *Filippo QRANDİ:* "BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycanla əməkdaşlığından məmnunuq"

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Cenevrədə BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazir Elmar Məmmədyarov Azərbaycanda qaçqın və məcburi köçkünlərə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən göstərilən humanitar yardımın, eləcə də təşkilatla ölkəmizin əməkdaşlığının cari durumunun yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Nazir Ermənistanın işğalından azad edilmiş və 2016-cı ilin aprelindən etibarən təhlükəsizliyi təmin edilmiş Cocuq Mərcanlı kəndində aparılan tikinti işləri və məcburi köçkünlərin oraya geri qayıtması tədbirləri haqqında ətraflı məlumat verib. O, ölkəmizdə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən sosial təyinatlı işlərin bundan sonra da davam etdiriləcəyini xüsusilə qeyd edib.

Elmar Məmmədyarov həmsöhbətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların gedişi barədə ətraflı məlumat verib. O əlavə edib ki, hər iki ölkədə seçkilərdən sonra ATƏT-in Minsk qrupunun həmsədrləri ilə münaqişənin həlli üzrə substantiv və nəticə yönümlü danışıqlar davam etdiriləcək. Nazir işğala əsaslanan status-kvonun dəyişdirilməsi üçün Ermənistan qoşunlarının BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu bildirib.

Suriyadan olan erməni əsilli qaçqınların qeyri-qanuni şəkildə işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirilməsi faktına toxunan nazir bu məsələyə beynəlxalq qurumların və dünya ictimaiyyətinin ciddi diqqət yetirməsinin vacibliyini bildirib.

Filippo Qrandi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib və ölkəmizin sözügedən təşkilata könüllü ianələrini yüksək qiymətləndirib.

Görüşdə Azərbaycan və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əməkdaşlığın perspektivlərinə və gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# 2018-ci il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi prosesinə yekun vurulub

Seçici siyahıları seçkilərin azad, ədalətli və şəffaf keçirilməsini şərtləndirən mühüm amillərdən biridir. Seçki Məcəlləsində nəzərdə tutulduğu kimi, 2018-ci il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının dəqiqləşdirilməsinə start verilib. Mərkəzi Seçki Komissiyasının bilavasitə rəhbərliyi altında ardıcıl və intensiv şəkildə aparılan genişmiqyaslı və çox əhatəli proses nəticəsində son illərdə olduğu kimi, cari il üçün də seçici siyahılarının dəqiqliklə və yüksək keyfiyyətlə hazırlanmasına nail olunub. Dəqiqləşdirməyə ölkə üzrə bütün aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub və bütün proses boyunca həm Daxili İşlər Nazirliyi, həm Ədliyyə Nazirliyinin müvafiq orqanları, həm də yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilib.



Siyahıların dəqiqləşdirilməsi zamanı MSK-nın 115 nömrəli qaynar xətti və internet səhifəsindəki onlayn müraciət imkanı mütəmadi şəkildə seçicilərin ixtiyarında olub və görülən işlərin səmərəliliyinin daha da artırılmasında əhəmiyyətli rol oynayıb. Dəqiqləşdirmə prosesinin bütünlüklə effektiv həyata keçirilməsinə və siyahıların yüksək standartlara uyğun tərtib və çap olunmasına heç şübhəsiz ki, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin uğurla tətbiqi və texniki imkanları daha da təkmilləşdirilmiş xüsusi proqram təminatları çox mühüm töhfə verib.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının üzvləri kütləvi informasiya vasitələrinin də iştirakı ilə fevralın 28-də komissiyanın inzibati binasında vahid seçicilər siyahısının 2018-ci il üzrə yenidən tərtib edilmiş variantı ilə yaxından tanış olublar. Media təmsilçiləri tərəfindən geniş işıqlandırılan tədbirdə qeyd olunub ki, vahid seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsində fasiləsiz onlayn rejimdə işləyən dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlardan peşəkarlıqla istifadə olunub. Yüksək texnoloji və interaktiv mübadilə seçici siyahılarının dəqiqləşdirilməsi və ümumiləşdirilməsi proseslərini daha da sürətləndirib, seçicilər barədə məlumatların ətraflı toplanması, bütün daxil edilənlərin orfoqrafik və qrammatik testdən keçirilməsi, təkrar və oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilməsi, habelə seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap edilməsini təmin edib.

Dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 5192042 seçici daxil edilib.

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyası 2018-ci il üzrə daimi seçici siyahılarının dəqiqləşdirilməsi, tərtib edilməsi, təsdiq edilməsi və ictimailəşdirilməsini cari il martın 3-dək başa çatdırılmasını qərara alıb.

# Avropa Şurasının rəsmisi Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi ilə bağlı görülən işlər barədə məlumatlandırılıb

Fevralın 28-də Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Avropa Şurasının media və internet bölməsinin əməkdaşlıq şöbəsinin rəhbəri Leyla Dervisagik ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, komitə sədri qonağa rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Bildirib ki, ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atılır, gender bərabərliyinin təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilir.

Qeyd olunub ki, Azərbaycan BMT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı ilə birgə qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi sahəsində vacib layihələr reallaşdırıb və bu işlər artıq davamlı olaraq həyata keçirilir.

Görüşdə iştirak edən Avropa Şurasının Bakı ofisinin rəhbəri səfir Zoltan Hernyes ikitərəfli əlaqələrdən məmnun olduğunu qeyd edib. O, Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində görülən işləri yüksək qiymətləndirdiklərini vurğulayıb.

Görüşdə əməkdaşlığın gücləndirilməsi, həyata keçirilən layihələrdə səmərəliliyin artırılması məsələlərinə dair müzakirələr aparılıb.





# Amsterdamda Avropa Azərbaycanlıları Konqresinin VI qurultayı başa çatıb

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Avropa Azərbaycanlıları Konqresinin (AAK) təşkilatçılığı ilə Niderland Krallığının Amsterdam şəhərində AAK-ın VI (növbədənkənar) qurultayı panel iclaslarla işini davam etdirib.

Qurultayda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Azərbaycanın Belçika və Lüksemburqdakı səfiri Fuad İsgəndərov, Niderlanddakı müvəqqəti işlər vəkili Cəlal Mirzəyev, Avropa ölkələrindəki diaspor nümayəndələri, ölkəmizin bir sıra aparıcı media qurumlarının rəhbərləri və digər qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, qurultayın ilk panel iclası Azərbaycan Prezidentinin "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncamına uyğun olaraq Avropa ölkələrində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi ilə əlaqədar AAK-ın Tədbirlər Planının layihəsinin müzakirəsinə həsr edilib.

Paneldə Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, AAK-ın İdarə Heyətinin üzvü Samira Patzer-İsmayilova, AAK İcraiyyə Komitəsinin üzvləri - Finlandiya Azərbaycanlı Qadınlar Birliyinin sədri Arzu Muradlı, İstanbul Türkiyə Azərbaycan Dərnəyinin sədri Səfər Qaraqoyunlu, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Serbiyada Azərbaycanlıların Mədəniyyət Mərkəzinin sədri Zərifə Əlizadə çıxış edərək mövzu ilə bağlı təkliflərini səsləndiriblər.

Panelin moderatoru Samira-Patzer İsmayilova çıxış edərək Azərbaycan Respublikası Prezidentinin "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında" sərəncamı barədə tədbir iştirakçılarına geniş məlumat verib. O, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin müasir dövrümüzün ən önəmli nailiyyətlərindən biri olduğunu qeyd edərək müstəqil Azərbaycan Respublikasının məhz həmin cümhuriyyətin varisi olduğunu söyləyib. Azərbaycanın bir çox sahələrdə əldə etdiyi nailiyyətlərdən danışan S.İsmayilova dövlətimizin tarixinin və zəngin mədəni irsinin Avropa ölkələrində geniş tanıdılmasının zəruriliyini diqqətə çatdırıb.

İstanbul Türkiyə Azərbaycan Dərnəyinin (İSTAD) sədri Səfər Qaraqoyunlu çıxışında rəhbərlik etdiyi qurum haqqında geniş məlumat verib. O bildirib ki, İSTAD Türkiyə və Azərbaycanın ortaq problemlərini, "erməni soyqırımı" iddialarının əsassız olduğunu, Dağlıq Qarabağ məsələsini və Xocalı soyqırımı ilə bağlı faktları dünya ictimaiyyətinin nəzərinə çatdırmağa çalışır. S.Qaraqoyunlu Azərbaycan Xalq Cümhuriyyətinin yüzilliyinin Türkiyədə də qeyd edilməsi ilə bağlı geniş proqramın olduğunu diqqətə çatdırıb.

Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı isə çıxışında müsəlman Şərqində yaradılmış ilk demokratik respublikanın qısamüddətli fəaliyyəti dövründə həyata keçirilmiş mühüm tədbirlər barədə danışıb. O bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş mühüm qərarların, həyata keçirilmiş islahatların Şərqdəki digər dövlətlərə də az təsiri olmayıb. 1990-cı illərdə Azərbaycanın güclərin mübarizə meydanına çevrildiyini qeyd edən T.Rüstəmxanlı vurğulayıb ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətinin nəticəsində bu gün Azərbaycan dövləti müstəqildir və məhz ulu öndərin məqsədyönlü, uzaqgörən siyasəti sayəsində Azərbaycan dünyanın nüfuzlu dövlətləri ilə bir masa arxasında təmsil olunaraq öz fikrini və şərtlərini irəli sürməyə qadir ölkəyə çevrilib.

Serbiyada Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Zərifə Əlizadə Azərbaycan Xalq Cümhuriyyətinin yüzilliyi ilə əlaqədar Serbiyada keçiriləcək tədbirləri diqqətə çatdıraraq bu ölkədə müasir yazıçıların antologiyasının nəşr olunacağını qeyd edib. O, Serbiyada Azərbaycan mədəniyyətinə böyük marağın olduğunu qeyd edərək mayın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin yüzilliyi ilə əlaqədar simfonik orkestrin iştirakı ilə Belqrad Opera və Balet Teatrında böyük tədbirin keçiriləcəyini bildirib. Serb dilinə tərcümə olunacaq əsərlərin Xorvatiya, Bosniya və Herseqovina, Monteneqro oxucuları üçün maraqlı olacağını söyləyən mərkəzin sədri, eyni zamanda, may ayında yüzilliklə bağlı Azərbaycan günlərinin təşkil ediləcəyini də vurğulayıb.

Finlandiya Azərbaycanlı Qadınlar Birliyinin sədri Arzu Oqtay çıxışında fevralın 8-də AAK-ın təşkilatçılığı ilə keçirilən forumda Tədbirlər Planı layihəsi ilə bağlı görüləcək işlərə dair müzakirələr aparıldığını bildirib. Həmçinin qeyd edib ki, mayın 24-də Finlandiyada Azərbaycan Xalq Cümhuriyyətinin yüzilliyinə həsr edilmiş tədbir təşkil olunacaq. A.Oqtay Baltikyanı ölkələr, Türkiyə, Almaniya, İsveç və digər ölkələrdə də AAK-ın təşkilatçılığı ilə çoxsaylı tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Qurultayın ikinci panel iclası "1918-ci il azərbaycanlıların soyqırımının yüzilliyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq Avropa ölkələrində 31 Mart - azərbaycanlıların soyqırımının yüzilliyinin qeyd edilməsi ilə əlaqədar AAK-ın Tədbirlər Planının müzakirəsinə həsr edilib. AAK İcraiyyə Komitəsinin üzvü, Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyevanın moderatorluğu ilə keçən paneldə AAK-ın vitse-prezidenti, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, AAK-ın fəxri prezidenti, Mayns Azərbaycan Cəmiyyətinin sədri Başar Kömür, Polşada Azərbaycanlı Gənclər Şurasının sədri Nail Əhmədzadə çıxış edərək təkliflər səsləndiriblər.

Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva çıxışında bildirib ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını reallaşdırmaq məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımı aktları həyata keçiriblər. O, 31 Mart soyqırımının yüzilliyi ilə əlaqədar Avropanın bütün ölkələrində tədbirlərin təşkil edilməsinin, təbliğat kampaniyalarının aparılmasının zəruriliyini diqqətə çatdırıb.

Başar Kömür isə çıxışında tarixən türklərə qarşı edilən haqsızlıqlardan bəhs edib. "Harada olursanız olun, öz milli dəyərlərinizə sahib çıxın. Bu, sizə ancaq başucalığı gətirə bilər", - deyə o bildirib. Başar Kömür Azərbaycana dost münasibəti bəsləyən şəxsləri 31 Mart soyqırımının beynəlxalq aləmdə tanıdılması məqsədilə iş görməyə çağırıb, Quba Memorial Soyqırımı Kompleksinə ziyarətin təşkilinin zəruriliyini vurğulayıb.

Rövşən Tağıyev çıxışında Azərbaycan diasporunun informasiya müharibəsində daha mütəşəkkil şəkildə işləməsinin zəruriliyini bildirib. O, ölkəmizlə bağlı həqiqətlərin dünyaya çatdırılmasında vahid proqram əsasında fəaliyyət göstərməyin zəruriliyini vurğulayıb. R.Tağıyev, həmçinin təmsil etdiyi təşkilat tərəfindən son günlərdə Xocalı soyqırımı ilə bağlı həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Nail Əhmədzadə gənclər tərəfindən mütəmadi şəkildə ölkəmizlə bağlı həqiqətlərin Polşa ictimaiyyətinə çatdırıldığını və bu istiqamətdə ən yeni üsul və vasitələrin tətbiq edildiyini söyləyib. O, Polşada Azərbaycanlı Gənclər Şurasının 31 Mart soyqırımı ilə bağlı həyata keçirəcəyi tədbirləri diqqətə çatdıraraq tədbir çərçivəsində Polşanın 10-a yaxın aparıcı media rəhbərinin Azərbaycana səfərinin planlaşdırıldığını bildirib.

Qurultayın üçüncü paneli "Azərbaycan diasporu və Azərbaycan mediası: əməkdaşlıq səviyyəsi, problemlər və onların həlli yolları"na həsr edilib. Panelin moderatoru "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlu çıxışında media və diaspor görüşünün bu şəkildə təşkilini zəruri və təqdirəlayiq addım hesab edib. O qeyd edib ki, media nümayəndələri diasporla həmişə birlikdə çalışmağa hazırdır və daim onlardan təkliflər gözləyir. Media qrupun rəhbəri, həmçinin diasporun son fəaliyyətindəki yenilikləri də təqdir edib və bunun daha da geniş olmasının vacibliyindən danışıb. R.Arifoğlu istər rəhbərlik etdiyi media qrupun, istərsə də digər media qurumlarının sosial şəbəkələrdəki fəaliyyətini də xatırladaraq diasporu bundan yararlanmağa dəvət edib.

"APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı dövlətin mediadan gözləntisinin Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tərəfindən dəfələrlə səsləndirildiyini xatırladaraq rəhbərlik etdiyi media holdinq barədə qurultay iştirakçılarına məlumat verib. O, həmçinin bildirib ki, rəhbərlik etdiyi holdinq Diasporla İş üzrə Dövlət Komitəsi ilə sıx işləyən media qurumlardan biridir. V.Mahirqızı qeyd edib ki, milli məsələlərdə diasporun media ilə əməkdaşlığı olmalıdır. O, diaspor liderlərini Azərbaycan həqiqətlərinin yayılmasında daha fəal birgə işə dəvət edib.

"Teleqraf" media qrupunun rəhbəri Aynur Quliyeva isə bildirib ki, rəhbərlik etdiyi media qurum diasporla çox sıx əməkdaşlıq edir: "Xaricdə yaşayan soydaşlarımız, yerli mətbuatla, yerli siyasətçilərlə yaxından təmas qursalar bu, daha çox faydalı olar. Azərbaycan üçün əlamətdar günlərdə sosial şəbəkələrdə yerli siyasətçiləri, tanınmış adamları birgə fəaliyyətə cəlb etmək önəmlidir. Bu məsələdə biz media olaraq birgə əməkdaşlığa hazırıq.

"Report" agentliyinin baş redaktoru Murad Əliyev diasporun xarici media ilə təmasının, xüsusən də Azərbaycan mətbuatı ilə xarici mətbuatın qarşılıqlı əlaqələrinin inkişafının vacibliyini bildirərək deyib: "Cənab Prezident İlham Əliyev də dünya azərbaycanlılarının sonuncu qurultayında xarici mətbuat nümayəndələri ilə daha yaxından işləməyi tövsiyə etdi. Çox yaxşı olardı ki, biz elə diasporun vasitəsilə onların olduqları ölkələrin jurnalistləri ilə ya Bakıda, ya öz ölkələrində görüşlər keçirək, birgə layihələr həyata keçirək".

"Yeniçağ" media qrupunun rəhbəri Aqil Ələsgər isə xarici mediada azərbaycanlıların çalışmasının vacibliyindən danışıb: "Biz media olaraq diasporla çox yaxından işləyirik, onların fəaliyyətini işıqlandırırıq. Amma bu, Azərbaycan həqiqətlərinin yayılması üçün kifayət etmir. Yaxşı olardı ki, xarici mətbuatda azərbaycanlıların yer almasına, əməkdaş kimi çalışmasına diqqət edək. Bu məsələdə bizim diaspor liderlərimiz, xaricdəki iş adamlarımız daha fəal ola bilərlər".

"İnterpress" saytının rəhbəri Toğrul Allahverdili də diasporla birgə fəaliyyətdən danışaraq təkliflərini səsləndirib.

"Haqqın.az" və "Virtualaz.org" saytlarının rəhbəri Eynulla Fətullayev isə xaricdə yaşayan azərbaycanlıları daha çox yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiya olunmağa, eyni zamanda, o ölkələrin media orqanlarına daha çox nüfuz etməyə çağırıb. O qeyd edib ki, diaspor nümayəndələrimiz qəlbində Azərbaycan sevgisini yaşatmaqla yanaşı, yaşadıqları ölkələrin cəmiyyətinin bir parçası olmağa çalışmalıdırlar.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirib ki, son vaxtlar diaspor liderləri arasında həqiqi qəhrəmanlardan fərqli olaraq "sosial media qəhrəmanları" da peyda olub. "Heç bir praktik fəaliyyəti yoxdur, ancaq sosial şəbəkədə hər gün nə isə yazıb diqqət çəkir, hətta şikayət də edir ki, biz ona diqqət göstərmirik. Ona görə mən mediamızdan xahiş edərdim diaspordan yazarkən belə faktlara diqqət etsinlər, əvvəlcədən bir məlumat toplasınlar ki, fəaliyyətlərini işıqlandırdıqları diaspor adından danışan kimdir", - deyə o bildirib. Dövlət komitəsinin sədri, eyni zamanda, media rəhbərlərinin xarici mətbuatla qarşılıqlı əməkdaşlıq təklifini də dəstəkləyib.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında Azərbaycan mətbuatı ilə diasporun birgə fəaliyyətinin son dərəcə mühüm olduğunu qeyd edib. Əli Həsənov qeyd edib ki, Diasporla İş üzrə Dövlət Komitəsinin tədbirlərində Azərbaycan mediasının fəaliyyətini əlaqələndirən belə bir panelin təşkil olunması təqdirəlayiqidir. Gələcəkdə digər tədbirlərdə də media ilə bağlı oxşar panellərin təşkil olunması vacibdir. Vaxtilə Azərbaycan informasiya blokadasında idi. Buna səbəb isə yeni müstəqilləşmiş medianın peşəkarlardan ibarət olmaması idi. İndi Azərbaycan mediası peşəkar kollektivlərdən ibarədir. Bu gün bizim mediamız regionun və dünyanın öndə gedən media qurumları ilə yarışa bilir, Azərbaycanın milli maraqlarının qorunması və eyni zamanda, informasiya bolluğunun təşkil olunmasında müstəsna xidmət göstərir.

Qurultayın sonunda Avropa Azərbaycanlıları Konqresinin Nizamnaməsinə əlavə və dəyişikliklər müzakirə olunaraq qəbul edilib. Avropa Azərbaycanlıları Konqresinin rəhbər orqanlarının yeni tərkibi təsdiq edilib, Sahil Qasımov səs çoxluğu ilə yenidən konqresin prezidenti seçilib.

Avropa Azərbaycanlıları Konqresinin 2018-2021-ci illər üçün fəaliyyət proqramı, Avropa Azərbaycanlıları Konqresinin VI (növbədənkənar) qurultayının qətnaməsi qəbul edilib. Qurultay iştirakçıları adından Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı beynəlxalq təşkilatlara bəyanat ünvanlanıb. Bundan başqa, Metsamor Atom Elektrik Stansiyası ilə bağlı beynəlxalq təşkilatlara müraciət və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə qurultay iştirakçıları adından müraciət ünvanlanıb.

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanist və xeyirxah missiya həyata keçirir





Fevralın 28-də Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) XXV baş məclisi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, dövlət və hökumət nümayəndələri, AzQAC-ın üzvləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin mərkəzdəki büstü önünə gül dəstələri düzüblər.

Mandat komissiyasının hesabatı dinlənildikdən sonra AzQAC-ın sədri, Milli Məclisin deputatı Novruz Aslanov tədbiri açıq elan edib.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Sonra təşkilati məsələyə baxılıb, AzQAC-ın yeni nizamnaməsi təsdiq olunub, baş məclisin rəyasət heyəti, katibliyi, hesablama komissiyaları seçilib.

AzQAC-ın sədri Novruz Aslanov hesabat məruzəsi ilə çıxış edib.

Məruzədə bildirilib ki, 1920-ci ildə əsası qoyulan Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu gün Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını respublikada təmsil edən yeganə milli cəmiyyətdir. Azərbaycanın şanlı tarixinin ayrılmaz hissinə çevrilən Qızıl Aypara Cəmiyyəti hazırda respublikada ən böyük sosial bazaya malik qeyri-hökumət təşkilatlarından biridir. Bu gün cəmiyyət öz sıralarında 370 mindən çox üzvü və 25 minə yaxın könüllünü birləşdirir. Hər il bu statistika artır. Bu illər ərzində AzQAC öz fəaliyyəti ilə kifayət qədər uğurlar əldə edib. Respublikada həyata keçirdiyi tibbi-sosial, humanitar və digər layihələr, müxtəlif mövzularda apardığı maarifləndirmə işləri əhalinin sağlamlığını, təbii fəlakətlər və texnogen qəzalar zamanı davranış qaydalarını, ilk yardım və bu sahədə digər vərdişlərin mənimsənilməsi üzrə layihələr buna misaldır.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti xeyriyyəçilik kampaniyalarında iştirak etmək istəyən hər bir vətəndaşa şərait yaradır. Bu barədə danışan Novruz Aslanov deyib ki, belə kampaniyalar haqqında bütün məlumatlar cəmiyyətin rəsmi internet səhifəsində yerləşdirilir. Bu da şəffaflığı təmin edən vacib amillərdən biridir.

Diqqətə çatdırılıb ki, AzQAC-ın əsas tərəfdaşları Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Beynəlxalq Qızıl Xaç Komitəsidir. Həyata keçirilən layihələrdə bu təşkilatların böyük rolu var. Son beş ildə bu təşkilatlarla birgə kifayət qədər uğurlu layihələrə imza atılıb. Fövqəladə hallara hazırlıq və cavabvermə, HİV, AİDS və vərəmlə mübarizə, səhiyyə maarifi, gənclər və könüllülərlə iş və digər layihələr bu qəbildəndir.

Rəhbərlik etdiyi qurumun KİV-lə sıx əlaqədə işlədiyini deyən Novruz Aslanov AzQAC-ın təşkil etdiyi bütün tədbirləri operativ və geniş işıqlandırdığına görə KİV-ə minnətdarlığını bildirib.

Novruz Aslanov gizli səsvermə yolu ilə yenidən təşkilatın prezidenti seçilib. Rövşən Əliyev və Qafar Əsgərzadə isə vitse-prezident seçiliblər.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev çıxış edərək bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu gün öz missiyasını uğurla davam etdirir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd ediləcək, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Bu münasibətlə Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bir sıra tədbirlər keçirəcək, öz yaranma tarixinə və keçdiyi yola nəzər salacaq və gördüyü işlər barədə ictimaiyyəti ətraflı məlumatlandıracaq.

Ərəstun Mehdiyev qeyd edib ki, müstəqilliyimizin ilk illərində hökm sürən mürəkkəb şəraitdə milli Qızıl Aypara Cəmiyyətinə böyük ehtiyac duyulurdu. Cəmiyyət həmin çətin dövrlərdə qaçqınların və məcburi köçkünlərin problemləri ilə bağlı xeyli işlər gördü. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qurumun işində əsaslı dönüş yarandı. AzQAC-ın fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Təşkilatın bir qrup üzvü fəxri adlara layiq görülüb, orden və medallarla təltif olunub. Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı sərəncama əsasən hər il martın 10-u Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunur. Bu, dövlət başçısının Qızıl Aypara Cəmiyyətinin humanitar fəaliyyətinə, nəcib missiyasına verdiyi ən yüksək qiymətdir.

Prezident Administrasiyasının rəsmisi əmin olduğunu bildirib ki, təşkilat öz xeyirxah missiyasını və gərəkli fəaliyyətini bundan sonra da səylə davam etdirəcək.

AzQAC-ın tarixinə nəzər salan Milli Məclisin komitə sədri Eldar İbrahimov 1920-ci ildə yaranmış təşkilatın ötən müddətdə şərəfli yol keçdiyini diqqətə çatdırıb. Qeyd edib ki, dövlət müstəqilliyimizin bərpa olunduğu ilk illərdə ölkə həyatının bütün sahələrində olduğu kimi, Qızıl Aypara Cəmiyyəti də ciddi çətinlik və problemlərlə üzləşmişdi. Bu məsələlərin həlli və təşkilatın fəaliyyətini canlandırmaq üçün ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bir sıra qanun layihələri qəbul edildi. Hazırda AzQAC heç bir donordan asılı deyil və müstəqil fəaliyyət göstərir.

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirib ki, bəziləri Azərbaycana demokratiya dərsi keçmək istəyirlər. Halbuki Azərbaycanda demokratiya yüz il əvvəl, Xalq Cümhuriyyətinin yaranması ilə bərqərar olub. Bu gün ölkəmizdə çoxsaylı qeyri-hökumət təşkilatları mövcuddur və sərbəst fəaliyyət göstərirlər. AzQAC da bunun bir nümunəsidir. O, nəinki ölkə daxilində, həm də beynəlxalq aləmdə layiqli yer tutub. Qurum bu illər ərzində humanizm prinsiplərini əsas götürüb və onun fəaliyyətini beynəlxalq təşkilatlar da yüksək qiymətləndirirlər.

Əli Həsənov qeyd edib ki, indiyədək Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanda 14 nümayəndəsi fəaliyyət göstərib. Xanım Elena Aymone Sessera 15-ci nümayəndədir. AzQAC ölkəmizdə fəaliyyət göstərən ən böyük müstəqil QHT-dir. Onun müstəqilliyini şərtləndirən əsas amil heç bir donordan asılı olmamasıdır. Təşkilat çətin vəziyyətdə olan insanlara kömək edir, çoxsaylı humanitar layihələr həyata keçirir. Azərbaycanın Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda reytinqdə 35-ci yeri, MDB ölkələri arasında isə birinci yeri tutduğunu xatırladan Baş nazirin müavini deyib ki, ölkəmizin dinamik inkişafı qaçqınlar və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün böyük imkanlar yaradır. Azərbaycan dövləti bu kateqoriyadan olan insanlara hərtərəfli qayğı göstərir. Müstəqilliyinin ilk illərində erməni işğalına məruz qalan Azərbaycanda yaşayan 7 milyon insandan 1 milyonu doğma yurd-yuvalarından didərgin düşmüşdü. O zaman Azərbaycan heç kimdən kömək gözləmədən öz problemlərini həll etdi və bu işə AzQAC da öz töhfəsini verib. Ölkəmizdə qaçqınların və məcburi köçkünlərin hüquqları tam şəkildə qorunur. Amma Azərbaycana demokratiya və insan hüquqları dərsi keçməyə çalışan, yüz milyonlarla əhalisi olan Avropa bir milyon miqrantın hüquqlarını təmin edə bilmir.

Çıxışının sonunda Ə.Həsənov təşkilatın öz humanist missiyasına bundan sonra da səylə davam edəcəyinə əminliyini ifadə edib.

Bununla da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XXV baş məclisi başa çatıb.

# *Akademik Yaqub MAHMUDOV:* "Ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmədirlər"



Ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. Ermənilərin gəlmə olduğunu mənbələr və "tarixin atası" Herodot da təsdiq edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov Ankarada Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunan beynəlxalq simpoziumda bildirib.

Y.Mahmudov deyib ki, tarixdən, tarixi hadisələrdən, o cümlədən Xocalı soyqırımından ibrət dərsi almaq lazımdır. İyirmi ildən çoxdur ki, BMT-nin qəbul etdiyi qətnamələr yerinə yetirilmir. Beynəlxalq hüquq yoxdur, beynəlxalq güc var. Bu gün münaqişələrin hamısı türk-İslam coğrafiyasında cərəyan edir. Biz terrorun İslamla əlaqələndirilməsinin əleyhinəyik. Azərbaycanın və Türkiyənin terror təşkilatı yoxdur, amma ermənilərin yüzlərlə terror təşkilatı var.

İnstitutun direktoru bildirib ki, Ermənistan prezidenti Serj Sarkisyan britaniyalı jurnalist Tomas De Vaala müsahibəsində Xocalı soyqırımının təşkilatçılarından olduğunu etiraf edib. S.Sarkisyan lovğalıqla belə deyib: "Xocalıya qədər azərbaycanlılar hesab edirdilər ki, bizimlə oyun oynaya bilərlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qıra bildik".

Akademik vurğulayıb ki, Tarix İnstitutunda aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilədək Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb. "Biz hər zaman ermənilərə əl uzatmışıq. O əlin ən uzununu "Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq" deyərək Məhəmməd Əmin Rəsulzadə uzadıb. Cümhuriyyət zamanı parlamentdə ermənilərə yer verdik. Amma ermənilər bizim əlimizi tutmadılar. 1918-ci ildə Londona göndərdiyi məlumatda general Tomson Fətəli xan Xoyski haqqında yazırdı: "O, ağıllı adamdır, hüquqşünasdır və öz bacarığı ilə Qafqazda bizə məlum olan bütün əvvəlki dövlət qurumlarından daha mükəmməl dövlət qurumu yaratmışdır. Mənimlə görüş zamanı o, ermənilərin xəyanətindən yana-yana danışırdı".

# Rus Pravoslav kilsəsinin rəhbəri Bilik Fondunun Fəxri Fərmanı ilə təltif olunub

Ulu öndər Heydər Əliyevin banisi olduğu və bu gün uğurla həyata keçirilən dövlət siyasəti nəticəsində davamlı olaraq möhkəmlənən, ölkəmizdə insan kapitalının formalaşması və zənginləşməsini təmin edən azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin və milli sərvətimiz olan ana dilimizin təbliği Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir.



Fondun "Azərbaycan dilini öyrənirik" layihəsi çərçivəsində artıq üçüncü ildir ki, Rus Pravoslav kilsələrində, eləcə də Alban-udi xristian icmasında "Azərbaycan dili" üzrə təlim kursları təşkil olunub. Dövlət dilini rusdilli vətəndaşlara təcrübəli dil və ədəbyyat müəllimləri tədris edirlər. Hər il kursu uğurla bitirənlərə müvafiq sertifikatlar təqdim olunur. Dinləyicilər Bilik Fondu tərəfindən dərslik və lüğətlərlə, danışıq kitabçaları və əyani vəsaitlərlə təmin edilir, təlimlər dövründə Azərbaycan dilində film və teatr tamaşalarına dəvət olunur, muzey və sərgilərə gedir, tanınmış yazıçılar və mədəniyyət xadimləri ilə görüşür, fondun maarifləndirici layihələrinə qoşulurlar.

28 fevral tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksandr İşeinlə görüşüb, Azərbaycanda tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin təbliği ilə bağlı Bilik Fondunun maarifləndirici layihələrində fəal iştirak etdiyinə görə fondun Fəxri Fərmanını din xadiminə təqdim edib. Görüşdə Bilik Fondunun təşkilatçılığı və Aleksandr Atanın dəstəyi ilə fondun "Azərbaycan dilini öyrənirik" layihəsi üzrə Bakı şəhərindəki "Jen Mironosets" və "Mixail Arxangel" kilsələrində təşkil olunmuş Azərbaycan dili üzrə ödənişsiz təlim kurslarının fəaliyyəti, təlimlərlə yanaşı, digər tədbirlərin təşkili ilə bağlı məsələlər müzakirə edilib, əhalinin dini maarifləndirilməsi istiqamətində birgə tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

Rus Pravoslav kilsəsinin rəhbəri Bilik Fondunun maarifləndirici fəaliyyətini yüksək dəyərləndirdiyini və fondun Fəxri Fərmanına layiq görüldüyünə görə minnətdarlığını bildirib.

***"Azərbaycan"***

# "SOCAR Karbamid"də ilk məhsul avqustda istehsal olunacaq

*Bu barədə SOCAR-ın yaydığı məlumatda bildirilir ki, zavodda tikinti işləri sona çatmaq üzrədir və bir aydan sonra artıq sınaq-sazlama işlərinə başlanılacaq. Müəssisədə ilk məhsul - ammonyakın istehsalı bu ilin avqust ayında planlaşdırılır. Cari ilin oktyabr ayında isə zavodun yekun məhsulu - azot gübrəsi (karbamid) istehsal olunacaq.*

İstehsal ediləcək karbamidin təxminən 150 min tonu daxili tələbatı tam təmin edəcək və nəticədə Azərbaycanda gübrənin idxalına illik sərf olunan 55 milyon dollar vəsait ölkə daxilində qalacaq. Məhsulun qalan 450-500 min tonluq həcmi isə ixrac üçün nəzərdə tutulur və bu da ölkəyə əlavə valyuta vəsaitinin gətirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Karbamid zavodunun layihəsi "2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na əsasən hazırlanıb. Zavodun inşası zamanı 3 min, müəssisə fəaliyyətə başladıqdan sonra isə 500 nəfər işlə təmin olunacaq. Ötən ilin yanvarında SOCAR "Karbamid zavodu" layihəsinin maliyyələşdirilməsi üçün Koreya Respublikasının "İxrac-İdxal Bankı"ndan vəsait cəlb edib. Bank zavodun inşasına 500 milyon avro məbləğində kredit ayırıb.

Sumqayıtdakı Azot gübrəsi - karbamid istehsalı zavodunun layihəsi 2013-cü il martın 13-də SOCAR və Koreya Respublikasının "Samsung Engineering Co., Ltd." şirkəti arasında imzalanan mühəndislik, satınalma və tikinti üzrə müqaviləyə əsasən həyata keçirilir. Daxili tələbatın tam ödənilməsi ilə yanaşı, gələcəkdə istehsal olunan karbamid məhsulunun müəyyən hissəsi Türkiyəyə və SOCAR-a məxsus Kulevi terminalı vasitəsilə dünya bazarlarına ixrac ediləcək. Zavod ammonyak, maye və dənəvər karbamid istehsalı bölmələrindən ibarət olacaq. Sutkada 2 min ton karbamid istehsal edən zavod kənd təsərrüfatının davamlı inkişafına böyük töhfə verəcək, işsizlik probleminin aradan qaldırılmasına müsbət təsir göstərəcək.

Layihənin dəyəri 700-750 milyon avro məbləğində qiymətləndirilir. Finlandiyanın "Neste Jacobs Oy" şirkəti "Karbamid zavodu" layihəsi üzrə layihənin idarəedilməsi və müstəqil təftiş xidmətləri göstərir.

Karbamid zavodunun illik gəlirinin 140-150 milyon dollar olması göstərilir.

# Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Göyçayda bölgə sakinlərini qəbul edib

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə fevralın 28-də Göyçay rayon Heydər Əliyev Mərkəzində bölgə sakinlərini qəbul edərək onların müraciətlərini dinləyib.

Qəbulda Göyçay, Ucar, Kürdəmir, Ağsu rayon sakinləri, həmçinin bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Vətəndaşlar əsasən təhsil haqlarının ödənilməsi, buraxılış və qəbul imtahanları ilə bağlı qəbul olunan yeniliklər, dövlət qulluğuna qəbul və digər məsələlərlə əlaqədar müraciətlər ünvanlayıblar. Həmçinin görüşdə ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, magistratura pilləsində təhsil, 2019-cu ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli, tətbiq olunacaq yeniliklər, dövlət qulluğuna qəbul üzrə müsabiqənin keçirilməsi və digər məsələlərlə əlaqədar müraciətlər də edilib.

DİM-in səlahiyyətlərinə aid olan bəzi məsələlər yerindəcə həll olunub. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb. Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

# Erməni məkri



30 il əvvəl, fevralın 27-29-da sovet DTK-sı ilə erməni millətçilərinin birgə təşkil etdikləri Sumqayıt hadisələri Qarabağ düyününün vacib halqalarından biri kimi bu gün də tədqiq olunur. Gənclərin həmin hadisələr barədə dolğun bilgilərə yiyələnməsi və erməni məkrinin mahiyyətini dərindən bilməsi məqsədilə Sumqayıtdakı Heydər Əliyev Mərkəzində maraqlı görüş keçirilib.

Tədbirdə bu olayların keçmiş SSRİ-nin dağılmasının sürətləndirilməsinə, həmçinin Ermənistandakı tarixi torpaqlarımızdan və Dağlıq Qarabağdan soydaşlarımızın qovulmasına yönəldildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, ölkə rəhbərinin tapşırığı ilə respublikanın Baş Prokurorluğu tərəfindən Sumqayıt hadisələrinə dair əhatəli istintaqın aparılması həmin cinayətin üstündən qara pərdənin götürülməsinə xidmət edir. Bildirildi ki, tədbirdə Sumqayıt hadisələrinin bilavasitə şahidləri və tədqiqatçıları da iştirak edirlər və onlar öz çıxışlarında olayların əsl mahiyyəti, vacib detalları haqqında danışacaq, aşkar olunan yeni faktları təqdim edəcəklər.

Çıxış edənlər bildirdilər ki, 32 sakinin, o cümlədən erməni milliyyətindən olan 26 nəfərin ölümü ilə nəticələnən cinayət olaylarından bir neçə gün əvvəl əsas icraçı Eduard Qriqoryan ovaxtkı Stepanakert şəhərinə gedərək separatçıların başçısı, hazırda Ermənistanın prezidenti olan Serj Sarkisyandan bədnam "Krunk" cəmiyyətinin hesabına pul köçürməyən Sumqayıt ermənilərinin siyahısını almışdı. Elə öldürülən ermənilər də əsasən onlar olmuşlar.

Çıxışlar davam etdikcə monitorda hadisələri əks etdirən tarixi fotoşəkillər göstərilirdi.

Sonda vurğulandı ki, Sumqayıt hadisələri bütün obyektivliyi ilə doğru-düzgün şəkildə dünya ictimaiyyətinə çatdırılmalıdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Paytaxtın rəsmi şəhər kartını yaratmaq məqsədilə memorandum imzalanıb

Memorandum Milli Turizm Təbliğat Bürosu, Bakı Nəqliyyat Agentliyi və "PASHA Travel" şirkətinin birlikdə rəsmi şəhər kartı yaratmaq məqsədilə keçirdikləri görüşdə imzalanıb.

Görüşdə "PASHA Travel" şirkətinin əməliyyatlar üzrə baş direktoru Florian Zenqstşmid bildirib ki, "Baku Card", Azərbaycanda ilk və Bakı şəhərinin yeganə rəsmi şəhər kartıdır: "Bu kartlar Azərbaycanın turizm sektorunun inkişafına öz töhfəsini verəcək. Belə ki, kart sahibləri ictimai nəqliyyatdan pulsuz, şəhər muzeyləri və mədəniyyət mərkəzlərinə ödənişsiz və ya endirimli girişdən istifadə edəcək. Bundan əlavə, "Baku Card" sahibləri mağazalar, kafelər, restoranlar və digər müxtəlif yerlərdə endirimlər və xüsusi təkliflər əldə edə biləcəklər. Kartların istifadə müddəti birgünlük, üçgünlük və birhəftəlik olacaq. Birgünlük kartların qiyməti 35 manat, üçgünlük kartların 60 manat, bir həftəlik kartların isə 90 manat dəyərində olması nəzərdə tutulub".

F.Zenqstşmid qeyd edib ki, yeni kartlar bir neçə aydan sonra istifadəyə veriləcək və gələcəkdə bu kartların Azərbaycan üzrə istismarı mümkündür. Yeni "Baku Card"ın maliyyə işləri "PASHA Travel" tərəfindən qarşılanır. Kartın istifadəyə verilməsi və səmərəliliyinin artırılması üçün şirkət Bakı Nəqliyyat Agentliyi və Milli Turizm Təbliğat Bürosu ilə birlikdə fəaliyyət göstərəcək.

Milli Turizm Təbliğat Bürosunun direktoru Fuad Nağıyev bildirib ki, "Baku Card" paytaxta və ölkəmizə turistlərdə daha çox maraq yaratmasına səbəb olacaq yeni bir məhsuldur: "Yeni istifadəyə veriləcək "Baku Card"lar Azərbaycanda turizm potensialını daha da artıracaq. Kartlardan yerli əhali və turistlər yararlana biləcəklər. Kart sahiblərinə "Baku Card" ilə yanaşı, endirimlər və xüsusi təkliflər əldə edə biləcəkləri mağaza və restoranların siyahısı olan broşürlər də veriləcək".

F.Nağıyev qeyd edib ki, hazırda Milli Turizm Təbliğat Bürosu özəl müəssisələrin "Baku Card" layihəsinə qoşulmaları üçün danışıqlar aparır. Yeni kartdan bir çox obyektlərdə istifadə olunması və kartın cəlbediciliyinin artırılması istiqamətində işlər görülür.

Bakı Nəqliyyat Agentliyinin direktorunun müşaviri Mübariz Abbasov isə bildirib ki, hazırda 21 marşrut xətti üzrə avtobuslarda gediş haqqı "BakıKart" ilə həyata keçirilir: "Yeni layihəyə əsasən, "Baku Card" sahibləri də ictimai nəqliyyatdan, o cümlədən metrodan pulsuz istifadə edə biləcəklər. Hazırda Bakıda nəqliyyat sahəsində optimallaşdırma işləri aparılır. Gələcəkdə yeni kartlardan daha çox marşrut xətti üzrə avtobuslarda istifadə ediləcək. Həmçinin bu kartlar ölkəyə gələn turistlərin "28 May" metro stansiyası - Heydər Əliyev Beynəlxalq Aeroportu istiqamətində fəaliyyət göstərən ekspress avtobuslarda da istifadə etməsinə imkan yaradacaq".






# Qafqazın ən böyük sənaye kompleksi



## Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələr məhsullarını "Made in Azerbaijan" brendi ilə ixrac edir

*Əvvəli 1-ci səh.*

Burada Almaniya, İtaliya istehsalı olan müxtəlif avadanlıqlar vasitəsi ilə qablaşdırılır və "Aminol" adı ilə "Made in Azerbaijan" brendi kimi satışa çıxarılır. Qiyməti isə xaricdən gələn yağların yarı qiymətinədir.

İstehsal edilən yüksək keyfiyyətli və rəqabətədavamlı yağlar yerli bazarda satılmaqla yanaşı, bir qisminin də Türkiyə, Gürcüstan və MDB ölkələrinə ixrac edilməsi nəzərdə tutulub.

### Məşhur "Parker" şirkəti ilə əməkdaşlıq

Sənaye parkının digər yeni müəssisəsi "MST Group" şirkətinə daxil olan "MST Engineering Services" MMC-dir. 14 mart 2016-cı il tarixdə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilən müəssisə ABŞ-ın "Parker Hannifin" şirkəti ilə birgə ilkin mərhələdə ildə 30 min ədəd müxtəlif növ və çeşiddə aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrinin istehsalını həyata keçirir. İkinci mərhələdə isə ultra yüksək təzyiqli xortum və polad, paslanmaz boru birləşmələri istehsal ediləcək.

Bundan başqa, müəssisədə müxtəlif növ aparatlara texniki xidmətlər də göstərilir. Belə ki, neft-qaz sahəsində və digər elektron sistemli qurğulardan istifadə edən şirkətlər həmin cihazlar xarab olduqda bu müəssisəyə müraciət edirlər. Çünki burada çalışanlar ABŞ-da və digər ölkələrdə ixtisas kursu və təlimlər keçərək sertifikatlara sahib çıxan mütəxəssislərdirlər. Şirkətə daxil olan cihazlar öncə laboratoriyada yoxlanılır və nasazlığının səbəbi müəyyən edilir. Bundan sonra cihaz təmir olunaraq işlək vəziyyətə gətirilir.

İnvestisiya həcmi 5 milyon ABŞ dolları olan müəssisədə istehsal edilən avadanlıqlar kimya, maşınqayırma, metallurgiya, neft-qaz, tikinti və qida sənayesində istifadə olunur. Müasir avadanlıqlar və texnologiyalarla təchiz edilən zavodda ilkin mərhələdə 40 nəfər işlə təmin olunub. Zavodda istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, MDB ölkələrinə də ixrac olunacaq.

### Şüşəyə olan tələbat daxili istehsal hesabına ödəniləcək

Sənaye parkında tikintisi aparılan yeni müəssisələrdən biri dekabrın 15-də təməli qoyulan "AzerFloat" QSC-nin termoformasiya metodu ilə Şüşə İstehsalı Zavodudur.

Hazırda tikinti işləri sürətlə davam edən zavodun ərazisində anbarın bünövrəsi qoyulub və monolit dəmir-beton işləri görülüb. Tikinti işlərinə xeyli sayda texnika və 130 nəfərə yaxın işçi qüvvəsi cəlb olunub.

2019-cu ildə fəaliyyətə başlaması nəzərdə tutulan zavodda il ərzində termoformasiya metodu ilə 8 milyon kvadratmetr şüşə istehsal olunacaq. Məhsulların yüksək keyfiyyəti ilə yanaşı, rəqabətqabiliyyətli olmasına da xüsusi diqqət yetiriləcək. Müəssisənin istifadəyə verilməsi ilə Azərbaycanın bu sahədə ixrac potensialı da güclənəcək. Zavodun məhsullarının Rusiya, Türkiyə, Gürcüstan, Mərkəzi və Orta Asiya ölkələrinə ixrac edilməsi planlaşdırılır. Bu zavod fəaliyyətə başladıqdan sonra Azərbaycanda şüşəyə olan tələbat tam təmin ediləcək. Yeni müəssisədə 180 nəfər işlə təmin olunacaq.



















Onu da vurğulayaq ki, sənaye parkının ərazisində ötən ilin dekabrında təməli qoyulan digər müəssisələr "Azərxalça" ASC-nin Yunəyiricibоyaq, "Tabaterra" QSC-nin siqaret istehsal edəcək, Tütün məmulatları istehsalı fabriklərində, eyni zamanda, bu il istismara veriləcək "SOCAR Polymer"in və SOCAR Karbamidin zavodlarında, Silisium və Kalsium İstehsalat Müəssisəsinin, "Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti"nin istehsalat sahələrində tikinti işləri sürətlə davam edir.

### Modern sənayeləşmə, azalan idxal, artan ixrac potensialı

Sənaye potensialı üçün vacib olan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın idxaldan asılılığını aradan götürəcək, yerli istehsalını artıracaq. Əlbəttə ki, bütün bunlar modern sənayeləşmə siyasətinin təntənəsidir.

Həm ərazisi, həm də yatırılan investisiyaların həcminə görə Sumqayıt Kimya Sənaye Parkı dünya miqyasında böyük bir sənaye mərkəzidir. Dövlətin uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafına yeni təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə ölkədə sənaye parkları və sənaye məhəllələrinin yaradılması prosesi davam edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Regionun neft-qaz ixrac mərkəzi

*Əvvəli 1-ci səh.*

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə nəql edilir. 2017-ci ildə terminaldan gündə orta hesabla 27,5 milyon standart kubmetr "Şahdəniz" qazı ixrac edilib.

AÇG-dən gələn səmt qazı isə terminalın emal obyektlərini "Azəriqaz"ın yanacağı paylayan sistemi ilə birləşdirən, SOCAR-a məxsus kəmərlə ötürülür. Keçən il AÇG-dən SOCAR-a 2,9 milyard kubmetr səmt qazı verilib.

Yaxın aylardan başlayaraq Səngəçaldan genişləndirilmiş CQBK-ya həmçinin "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qaz da vurulacaq. Bunun üçün terminalda müvafiq genişləndirmə işləri aparılıb. 2014-cü ildən burada başlanan tikinti işləri artıq yekunlaşıb. "Şahdəniz-2" qazını qəbul, emal və ixrac etmək üçün yeni qurğular quraşdırılıb. Bunlar qaz və kondensat emalı qurğuları, eləcə də qaz ixracı kompressoru və digər avadanlıqlardan ibarətdir.

Xatırladaq ki, hələ genişləndirmədən əvvəl də Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminallarından idi. "Şahdəniz-2" hissəsinin tikilməsindən əvvəl onun ərazisi 540 hektar təşkil edirdi. Bakıdan 55 kilometr cənubda, yarımsəhra zonada belə bir möhtəşəm obyektin araya-ərsəyə gəlməsi Azərbaycanın yeni neft strategiyasının, neft və qaz yataqlarının dünyanın tanınmış şirkətləri ilə birgə işlənməsinin bəhrəsidir.

"Şahdəniz-2" qurğularının yerləşdiyi sahə terminalın ərazisini daha 70 hektar genişləndirib. Lakin şərt təkcə ərazinin böyüklüyündə deyil. Səngəçal terminalında ən mürəkkəb qurğular işləyir. Bu da təsadüfi deyil. Çünki terminala Azərbaycanda həyata keçirilən meqalayihələr çərçivəsində çıxarılan neft, qaz və kondensat daxil olur. Buradan Gürcüstana, Türkiyəyə uzanan yolların Avropanın bir çox ölkələrinə çatacağı gün də uzaqda deyil.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azercell" 2017-ci ilin yekunlarını açıqladı



"Azercell Telekom" MMC Azərbaycan rabitə bazarının lider mobil operatoru olaraq ölkədə fəaliyyətini uğurla davam etdirir. Azərbaycanın mobil rabitə sektorunda 48.2% bazar payına malik olan "Azercell"in şəbəkəsi ölkə ərazisinin 80% (işğal altında olan 20% ərazi istisna olmaqla), əhalinin isə 99,8%-ni əhatə edir. Hazırda 4,5 milyon abunəçi "Azercell"in mobil xidmətlərinə üstünlük verir.

"Azercell" şirkəti tərəfindən 2017-ci ildə dövlət büdcəsinə **179,7 milyon manat**, 21 il ərzində isə dövlət büdcəsinə **1 milyard 637,5 milyon manat** vergi ödənildi. Lider mobil operator Azərbaycanda telekommunikasiyanın inkişafına 2017-ci ildə **41 milyon 837 min 259 manat**, 1996-2017 illər ərzində **1 milyard 467 milyon 779 min 40 ABŞ dolları** sərmayə yatırdı.

Ölkədə 4G xidmətini ilk dəfə abunəçilərinə təqdim edən və Azərbaycanın bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən "Azercell" 2017-ci ildə Bakı, Abşeron yarımadası ilə yanaşı, Gəncə, Bərdə, Şəmkir və Lənkəranda da 4G stansiyaları quraşdırdı və bununla da LTE xidmətini regionlara gətirən ilk mobil operator oldu. 2017-ci ildə "Azercell" abunəçilərinin xidmətində olan ümumi Radio Baza Stansiyalarının sayı 5506-ya bərabər idi: 2G və 3G 4957; 4G stansiyaları- 549. Ölkədə ən böyük LTE şəbəkəsinə sahib olan "Azercell"in 4G internet istifadəçilərinin sayı 2017-ci ildə əvvəlki illə müqayisədə 3 dəfə artdı, mobil internetdən istifadə həcmi isə 50% çoxaldı.

Müştəri məmnuniyyətini hər zaman öndə tutan "Azercell Telekom" ölkədə Müştəri Loyallığını ölçən ilk şirkətdir. Belə ki, şirkət 2017-ci ilin II rübü üçün Beynəlxalq Abunəçi Loyallığı İndeksi olan NPS qiymətləndirilməsində bütün rəqiblərini qabaqlayaraq 63% göstərici toplamışdır. Müştəri Məmnuniyyəti Sorğusunda isə "Azercell"in əldə etdiyi nəticə 81% -ə bərabər oldu. Qeyd edək ki, hər iki rəqəm beynəlxalq standartlara görə yüksək göstəricidir.

Səmərəli Müştəri Xidmətləri fəaliyyətinə görə "Azercell" beynəlxalq keyfiyyətin idarəolunması standartı üzrə ISO sertifikatlarını yenilədi:

Sosial şəbəkələr vasitəsilə müştərilərin sorğularını ən operativ cavablamaya görə "Azercell" Socialbakers şirkətinin ölkə üzrə yeganə 100% göstərici ilə "Socially Devoted" sertifikatlarına layiq görüldü.

"Azercell"in korporativ müştərilərinə göstərdiyi yüksək xidmət və unikal təkliflər nəticəsində 2017-ci ildə **1 400-dən** artıq yeni şirkət öz rabitəsini "Azercell"ə etibar edərək, onun korporativ müştəriləri sırasına qoşuldu.

"Azercell" 2017-ci ildə yeni konsepsiyalı "Azercell Eksklüziv" mağazalarını abunəçilərin istifadəsinə verdi. Müştərilərə bir məkanda müxtəlif növ xidmət təqdim edən, rahat seçim etmək imkanı verən, Nordic konsepsiyasına uyğun olaraq qurulmuş yeni mağazalar Bakı, Xırdalan, Quba, Xaçmaz şəhərlərində açıldı.

"Azercell" 2017-ci ildə keçirdiyi sərfəli və güzəştli kampaniyalar ilə də abunəçilərini sevindirdi. iPhone cihazlarının Azərbaycanda yeganə rəsmi təqdimatçısı olan "Azercell Telekom"un təklif etdiyi kampaniyalar nəticəsində abunəçilər iPhone smartfonlarına sahib olmaqla yanaşı, sərfəli "Hədsiz" tarif paketindən yararlanmaq imkanı da qazandılar. Nəticədə, "Azercell" abunəçiləri arasında smartfon penetrasiyası 20% artdı.

Azərbaycanın rabitə bazarına innovativ yeniliklər və müasir xidmətlər gətirən "Azercell" ötən il də bu sahədə fərqlənib. Ölkəmizdə ilk dəfə "Virtual ATS" xidmətini istifadəyə verməklə "Azercell" şirkətlərə rabitənin yeni səviyyəsindən yararlanmaq imkanı yaradıb. Bu həll şirkətlərə mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradır. "Virtual ATS" xidmətilə şirkətlər daxil olan zəngləri qəbul etmək və paylamaq üçün vahid çoxkanallı nömrə əldə edir. Xidmət mövcud və potensial müştərilərlə ünsiyyəti asanlaşdırır, həmçinin şirkətin ofisləri və bölmələri arasında rabitənin effektivliyini artırır.

Azercell 2017-ci ildə "Azercell Plus" çətiri altında əlavə xidmətləri ilə də abunəçilərini sevindirdi. Burada təqdim olunan xidmətlərin hamısı müştərilərin rahatlığı üçün bir yerdə toplanıb və müxtəlif kateqoriyalara bölünüb. Belə ki, "Azercell Plus" xidmətləri vasitəsilə istənilən zaman və yerdə musiqi dinləmək və video izləmək, müxtəlif dillərdə kitab oxumaq, cihazların müdafiəsini təmin etmək, mobil cihazların təhlükəsizliyini və uşaqların internetdə keçirdiyi vaxtı idarə etmək mümkündür.

"Azercell Telekom" bazarının ən son yeniliklərini baş sponsoru olduğu Bakutel Telekommunikasiya sərgisində də abunəçilərinə təqdim etdi. "Azercell" özünün əsas texniki tərəfdaşı Ericsson şirkəti ilə birgə simsiz rabitənin imkanlarını genişləndirmək məqsədilə ölkədə VoLTE xidmətini sınaqdan keçirən ilk şirkət oldu. Nəzərinizə çatdıraq ki, VoLTE texnologiyası 4G (LTE) şəbəkəsi vasitəsilə səsli zənglər həyata keçirməyə və abunəçilərə ən yüksək keyfiyyətli (HD) səsli və video zəng xidmətlərindən faydalanmağa imkan verir. Bundan əlavə "Bulud" texnologiyaları", "Smart parking" "Connected cube" adlı texnoloji həllər də Azercell-in nümayiş etdirdiyi yeniliklər sırasında oldu.

Fəaliyyət göstərdiyi 21 il ərzində çoxsaylı Korporativ Sosial Məsuliyyət layihələrini həyata keçirən Azercell Telekom ötən il də ənənəsinə sadiq qaldı. 2017-ci ildə şirkət ölkədə müxtəlif sosial layihələrin həyata keçirilməsinə, sahibkarlığın, insan qaynaqlarının inkişafına ümumilikdə 1 milyon 800 min manat, 1996-2017-ci illər ərzində isə 18 milyon 718 min 649,12 ABŞ dolları həcmində vəsait sərf edib.

- İnternetdə uşaqların müdafiəsinə xüsusi önəm verərək "Azercell" Bakı məktəblərində şagirdlər, müəllimlər və valideynlər üçün kiber-təhlükəsizlik mövzusunda təlimləri həyata keçirir. Azərbaycan Müəllim İnkişafı Mərkəzi ilə birgə əməkdaşlıqda "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda keçən təlimlər inkişaf edən texnologiyalar aləmində uşaq və valideynlərin müxtəlif təhlükələrdən necə müdafiə olunmasından ətraflı söhbət açır.

- "Azercell"in Barama İnnovasiya və Sahibkarlıq mərkəzi gənc startaplara dəstək olmaqda davam edir. İl ərzində 80 tədbir - texnoloji, qrup çalışmaları, forumlar, təlimlər, görüşlər, müsabiqələr, sosial və mədəniyyətlə bağlı layihələr keçirildi. Regionlarda və Bakıda Baramanın 4 yeni filialı açıldı, 5 beynəlxalq tədbir və 20 startap layihəsinin inkubasiyası keçirildi.

- 2017-ci ildə toplam 25 tələbə "Azercell"in fəxri təqaüdçüsü adını qazandı. Yay təcrübə proqramında iştirak etmiş 24 tələbədən 2-si "Azercell"də ştat işçisi kimi işə alındı. ITECA və Təhsil Nazirliyi tərəfindən təşkil olunan 12-ci Beynəlxalq Karyera Sərgisində "Azercell" ən çox ziyarət edilən stend sertifikatını qazandı.

- Ölkədə kadrların peşəkarlığını artıran Azercell Akademiyası il ərzində "Azercell" daxilində və müxtəlif şirkətlər üçün toplam 118 təlim sessiyası təşkil etdi.

- 2014-cü ildən etibarən "Azercell" Azərbaycan Uşaq Paralimpiya Komitəsində sağlamlıq imkanları məhdud uşaqların məşq etməsinə dəstək verir. 2017-ci ildə Uşaq Paralimpiya İdman Oyunlarında 8 regiondan 111 uşaq 7 idman növündə 19 medal uğrunda mübarizə apardı. Gənc paralimpiyaçılar il boyu ölkəni müxtəlif beynəlxalq yarışlarda yüksək səviyyədə təmsil edib mükafatlar qazandı.

- 2017-ci il ərzində "Azercell"in Mobil Göz Klinikasının kimsəsiz uşaqlar, qocalar, az təminatlı ailələr üçün təşkil etdiyi pulsuz müayinələrdən 1426 nəfər keçdi.

- "Azercell"in yaratdığı Mobil Diş Klinikası isə ümumilikdə Bakı və Abşeronda 775 nəfəri pulsuz diş müayinəsi və müalicəsi ilə təmin etdi.

- "Azercell"in dəstəyi, Ümidli Gələcək İctimai Birliyinin təşkilatçılığı ilə fəaliyyət göstərən Azərbaycan Uşaq Qaynar Xətti xidməti uşaq hüquqlarının qorunmasına, onların qayğısına və rifahına yönəlik layihələrindən biridir. 2017-ci ildə "Azercell"in təşəbbüsü ilə Uşaq Qaynar Xətti xidmətinin mobil əlavəsi istifadəyə verildi. İl ərzində xidmətə ümumilikdə 3424 müraciət daxil oldu.

- KİV-lə əməkdaşlığı həmişə ön planda olan şirkət jurnalistlər üçün 2009-cu ildən təşkil etdiyi ingilis dili kurslarını ötən il onlayn formada aparıb. İl ərzində 50- dən çox jurnalist bu kursa qatılmaq imkanı qazandı.

- Bütün bunlardan əlavə, "Azercell"in sosial dəstək məqsədilə yaratdığı güzəştli Veteran kampaniyası çərçivəsində veteranlar hər ay ümumilikdə 60 min manat civarında bonus alırlar. Jurnalistlər üçün yaradılmış MediaCell tarif paketində isə media əməkdaşlarına "Azercell"dən hər ay 20 min manat dəyərində bonus təqdim olunur.

Ölkədə gənclər arasında mütaliə mədəniyyətini artırmaq, yerli müəlliflərimizi tanıtmaq, eləcə də dinamik həyatımızda intellektual istirahət imkanı təqdim etməyi qarşısına məqsəd qoyan "Azercell Telekom" "Gənclər kitab oxuyur" adlı layihə çərçivəsində "Starbucks" Azərbaycan kafelərində oxu günləri təşkil etdi.

"Azercell" tərəfindən həyata keçirilən bütün bu işlər yerli və beynəlxalq qurumların diqqətindən kənarda qalmadı və şirkət ötən il beynəlxalq və yerli ödüllərə layiq görüldü. "Azercell Telekom" "Keyfiyyətdə Mükəmməllik" beynəlxalq konfransında milli bazar və beynəlxalq reytinqdə güclü mövqeyinə, müasir idarəetmə texnologiyalarının uğurla həyata keçirilməsinə, əməkdaşların yüksək hazırlıq səviyyəsinə və səmərəli marketinq strategiyasına görə İsveçrədə xüsusi ödülə layiq görüldü. Şirkət prezidenti Vahid Mürsəliyev "Avropa Nəşr Mətbuat Evi" tərəfindən "Ən yaxşı vətənpərvər müəssisə rəhbəri" kimi mükafatlandırılıb, qızıl medalla təltif olundu.

Bütün bu və burada qeyd olunmayan digər çoxsaylı göstəricilər "Azercell Telekom" MMC-nin nailiyyətlər və uğurlarla dolu bir ili geridə qoyduğunu bildirməyə əsas verir. Ölkənin lider mobil operatoru "Azercell Telekom" yeni ildə də müştərilərini güvənli və yüksək keyfiyyətli rabitə ilə təmin etmək, sürətli Mobil İnterneti hamı üçün əlçatan etmək, xidmət səviyyəsini daim yüksək saxlamaq, bazara yeni innovativ həllər və yeni texnologiyalar gətirməklə öz fəaliyyətini davam etdirəcək.





REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI
III DÖVLƏT PROQRAMI






# Qəbələ Azərbaycanın turizm brendinə çevrilir

## 2020-ci ildə "İslam dünyasının turizm paytaxtı" seçilməsi onun daha geniş miqyasda tanınmasına təsir göstərəcək

Qəbələ təkcə ölkə daxilində deyil, onun hüdudlarından da çox-çox uzaqlarda tanınan bölgələrimizdəndir. Ənənələri, qədimiliyi ilə tarixdə iz salan bu məkan dövlət müstəqilliyimizin bərpasından sonra daha çox tanınmağa başlayıb.

Bunun da başlıca səbəbi buradakı davamlı inkişafla bağlıdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2003-cü ilin oktyabr ayından 2018-ci ilədək Qəbələdə 14 min 907-si daimi olmaqla, 16 min 706 yeni iş yeri açılıb. Keçən il açılmış yeni iş yerlərinin sayı 1641 olub. Onların da hamısı daimidir.

Sözsüz ki, bütün bunlar formalaşdırılan normal iqtisadi baza sayəsində mümkün olub. İnkişaf statistik rəqəmlərdə də əksini tapıb. Təkcə keçən il rayonun yerli gəlirləri 100,6 faiz yerinə yetirilib. Mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissədə 188,9 min manat artım olub.

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Qəbələdə yeni mərkəzi xəstəxana kompleksinin və Qəbələ dəmir yolunun tikintisinə başlanılacağını, şəhərin su-kanalizasiya şəbəkəsində tikinti-quraşdırma işlərinin başa çatdırılacağı qeyd edildi. Bu faktın özü də dövlət tərəfindən rayona göstərilən daha bir qayğının təzahürü olmaqla yanaşı, qəbələlilərin qarşısına yeni vəzifələr qoyub.

Turizmin inkişafı sahəsində görülən işlər, yaradılan müasir infrastruktur, göstərilən xidmətlər nəticəsində də regiona turist axını ildən-ilə artır.

Əvvəlki illərlə müqayisədə 2017-ci ildə rayona gələn turistlərin sayında böyük artım müşahidə olunub, Qəbələ onların maraq göstərdiyi cazibədar bir mərkəzə çevrilib.

Rayonla bağlı digər xoş bir xəbər isə fevralın əvvəlində gəldi. Qəbələ İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin turizm nazirlərinin X konfransında 2020-ci il "İslam dünyasının turizm paytaxtı" seçilib. Bu qərar da təsadüfi deyil. Hazırda rayonda 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların 7-si beşulduzlu hoteldir. Bu hotellərin bir gündə 2500-dən çox turisti qəbul etmək imkanı var. Yeri gəlmişkən, ötən il Qəbələyə gələn turistlərin sayı isə 250 minə yaxın olub.



Keçən il Qəbələyə gələn xarici ölkə rəsmilərinin də sayı artıb. Bir il ərzində Kolumbiya Respublikası xarici işlər nazirinin, Moldova xarici işlər naziri müavininin, İranın Qərbi Azərbaycan vilayəti valisinin, Avstriyanın və İsrailin Azərbaycandakı səfirlərinin, Monteneqronun Ali Məhkəməsi sədrinin, Koreyanın Qyonqçu, İsrailin Yokneam, Belarusun Qrodno, Polşanın Qnezno şəhəri merinin rəhbərlik etdikləri nümayəndə heyətləri Qəbələdə olublar. Rusiya Federasiyası Ədliyyə Nazirliyinin əməkdaşları, MDB-yə üzv dövlətlərin gömrük xidməti orqanlarının rəhbərləri şurasının hüquq mühafizə bölmələri başçıları, ABŞ-ın Harvard Universitetinin bir qrup müəllim və tələbəsi və III Bakı Beynəlxalq memarlıq müsabiqəsinin iştirakçıları da Qəbələdən xoş təəssüratlarla qayıdıblar.

Səfər çərçivəsində qonaqlar rayonun tarix-mədəniyyət abidələri, sənaye müəssisələri, turizm, idman və sağlamlıq kompleksləri, Qəbələ Regional "ASAN xidmət" Mərkəzində yaradılmış şərait və iş prinsipi ilə tanış olublar.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısnın rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasının Qrodno şəhərinə, Rusiya Federasiyasının Stavropol diyarına dəvət olunub, ölkələrarası və regionlararası forumlarda iştirak edib. Forumlarda şəhər və vilayət rəhbərləri ilə müzakirələr aparılaraq ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair sənədlər imzalanıb.

Rayon icra hakimiyyəti başçısının birinci müavininin rəhbərliyi ilə rayonun 13 yaşlı futbolçularının da daxil olduğu nümayəndə heyəti Koreya Respublikasının Qyonqçu şəhərinə səfər edib. Belə qarşılıqlı səfərlər əlaqələrin daha da möhkəmləndirilməsində, mədəniyyət və turizm işinin genişləndirilməsində və inkişafında böyük rol oynayır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransında o da qeyd olundu ki, Bakıdan sonra Azərbaycanın ikinci turizm mərkəzi olan Qəbələdə turizm infrastrukturunun genişləndirilməsi, inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülür, iri layihələr həyata keçirilir.

Məlumdur ki, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq olunaraq peşə təhsili və təlimi sektoru üzrə qısa, orta və uzunmüddətli strateji baxış müəyyənləşdirilib. Qəbələdə bu sahə üzrə kadr hazırlığına da diqqətlə yanaşılır, gənclərə peşə təhsili verən 2 məktəb fəaliyyət göstərir. Qəbələ Turizm və Hotelçilik üzrə Peşə Tədris Mərkəzində hazırda 179 nəfər şagird təhsil alır. 2017-ci ildə mərkəzi 141 nəfər bitirib. Şagirdlərin istehsalat təcrübəsinin təşkili və keçirilməsi məqsədilə sifarişçi təşkilatlarla Qafqaz Resort Hotelinə, Qafqaz Riverside Hotelinə, Qafqaz Sport Hotelinə, Qafqaz Tufandağ Hotelinə, Qəbələ Statistika İdarəsinə, Azərpoçt MMC-nin Qəbələ Filialına, "Fərid" kiçik müəssisəsinə, Yengicə İstirahət Mərkəzinə və digər təşkilatlara istehsalat təcrübəsinə göndərilirlər.

Qazanılan nailiyyətlərin arxasında qeyd etdiyimiz kimi, ilk növbədə, dövlətin qayğısı, burada yaşayan insanların əməksevərliyi dayanır, turist axınının artması burada yaradılan şəraitdən və qonaqpərvərlikdən xəbər verir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Son 14 ildə Göygöl rayonunda ÜDM istehsalı 4 dəfədən çox artmışdır

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası sayəsində digər rayonlar kimi, Göygölün də siması tanınmaz dərəcədə dəyişmişdir. Açılan yeni müəssisələr hesabına əhalinin məşğulluğu təmin olunmuş, həyat səviyyəsi yaxşılaşmışdır.

Keçən ilin avqust ayının 19-da Prezident İlham Əliyev rayona səfəri zamanı bir neçə obyektin, o cümlədən "Qələbə" parkının, müasir tələblərə cavab verən 4 saylı körpələr evi-uşaq bağçasının, "Cicəkli" Su Elektrik Stansiyasının, zona toxumçuluq, aqrokimya, baytarlıq laboratoriyalarının və Respublika Süni Mayalanma Mərkəzinin açılışında iştirak etmiş, keçirdiyi görüşlərdə rayonun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Dövlət başçısının füsunkar Göygölə gedən avtomobil yolunun yüksək səviyyədə təmiri üçün verdiyi tapşırıq da rayon sakinləri tərəfindən razılıqla qarşılanmışdır.

Ümumiyyətlə, regional inkişaf dövlət proqramlarının icrası sayəsində rayonun iqtisadiyyatı dinamik şəkildə inkişaf etmiş, 68 xidmət, 192 istehsal, 5 emal müəssisəsi istifadəyə verilmiş, ümumi daxili məhsul istehsalı 4,1, o cümlədən sənaye məhsulları istehsalı 1,8, kənd təsərrüfatı məhsulları istehsalı 2,5 dəfə artmışdır.

Göygöllülər əvvəlki illər kimi, keçən ili də yüksək göstəricilərlə yola salmışlar. Əsas kapitala qoyulmuş vəsaitin çox hissəsi tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Belə ki, Göygöl şəhərində bir çox çoxmənzilli binaların dam örtükləri dəyişdirilmiş, fasad hissələri əsaslı təmir edilmişdir. İl ərzində müxtəlif küçələrə, piyada yollarına asfalt örtük salınmış, suötürücü arxlar quraşdırılmış, səki daşları düzülmüş, şəhərdaxili yollarda sıradan cıxmış hissələr təmir edilmişdir. "Azərbaycan İkinci Kənd İnvestisiya Layihəsi"nin maliyyə dəstəyi ilə Yeni Zod, Quşqara, Köşkü, Pənahlılar, Yeni Qızılca, Nadil, Əlimədədli və Xaqani kəndlərinin daxili yolları cari təmir edilmiş, Sarısu, Mollacəlilli kəndlərinə içməli su xətti çəkilmişdir.

Rayonda sahibkarlıq subyektlərinin normal fəaliyyət göstərməsinə, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına əlverişli şərait yaradılmışdır. Təkcə keçən il 785 sahibkarlıq subyekti fəaliyyətə başlamışdır. İndi Göygöldə belə subyektlərin sayı 5,8 mindən çoxdur. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 38 sahibkara 409 min manat güzəştli kredit verilmişdir. Nəticədə rayon üzrə ÜDM istehsalında qeyri-neft sektorunun xüsusi çəkisi 80,5 faizə çatmışdır.

Göygöl rayonu sakinlərinin əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Əvvəlki illərdə olduğu kimi, keçən il də göygöllülər bu sahədə uğurlu göstəricilərə nail olmuşlar. Rayonda il ərzində 50 milyon 496,1 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

Qarşıya qoyulan tələblərdən biri büdcənin neft gəlirlərindən asılılığını aradan qaldırmaqdır. Bu baxımdan, ilk növbədə, iqtisadi cəhətdən daha səmərəli olan məhsulların istehsalı artmalıdır. Belə məhsullardan biri şəkər çuğundurudur. Göygöldə yüksək gəlir gətirən bu sahənin inkişafı üçün mövcud potensialdan maksimum istifadə edilir. Nəticə göz qabağındadır - fermerlər 599,1 hektar sahədən, 17 min 492 ton şəkər çuğunduru tədarük edərək təhvil vermişlər.

Rayonda heyvandarlığın inkişafı istiqamətində aparılan məqsədyönlü tədbirlər də öz bəhrəsini verir. Rayon üzrə qaramalın sayı 20,2 min, davarlarınkı isə 154,7 mindir. Heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində sürüdə olan cins heyvanların sayı 174-ə çatmışdır. Təkcə keçən il süni yolla əldə edilmiş balalar 250 başdan çox olmuşdur. Heyvandarlıq məhsullarının istehsalında da müsbət göstəricilər qazanılmışdır. Belə ki, keçən il rayon üzrə 260,2 ton ət, 139,2 ton süd istehsal edilmişdir və bu, əvvəlki ildəki göstəricidən xeyli yüksəkdir.

Əhalinin, xüsusilə gənclərin məşğulluğunu təmin etmək məqsədilə rayon üzrə "Ərazi məşğulluq proqramı" hazırlanaraq icra edilmişdir. Onu da qeyd edək ki, rayonda əmək ehtiyatlarından düzgün və səmərəli istifadə olunması məqsədilə Məşğulluq Mərkəzində vakant iş yerləri haqqında məlumatlar toplanır. Keçən il bu yolla 250 nəfər işlə təmin edilmişdir.

Rayonun 45 yaşayış məntəqəsinin 24-ü təbii qazla təmin edilmişdir. Hazırda digər kəndlərin qazlaşdırılması istiqamətində işlər davam etdirilir. Suya gəldikdə, bu istiqamətdə də bir sıra işlər həyata keçirilir. Belə ki, su kəmərlərində və su mənbələrində təmizləmə işləri aparılır, şəhərdaxili su şəbəkəsində xətlər dəyişdirilir, nasos stansiyası təmir olunur. Prezidentin "Əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar" müvafiq sərəncamına əsasən Bəhrəmbağ qəsəbəsində modul tipli sutəmizləyici qurğu quraşdırılır.

Respublikamızın digər rayonları kimi, Göygöl də beləcə gündəlik qayğılarını yaşayır. Azərbaycanın bu dilbər guşəsi öz simasını dəyişdikcə yerli və xarici turistlərin də marağına səbəb olur. Xüsusilə Göygöl Milli Parkında turizm infrastrukturu ilə bağlı yaradılan şərait nəticəsində hər il rayona gələn turistlərin sayı artır. Təkcə keçən il rayona 81 min turist gəlmişdir ki, onun da 5 mini xarici ölkə vətəndaşları olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bərdə tərəqqi yolu ilə irəliləyir



Dövlətçilik tariximizdə Bərdənin şərəfli yeri vardır. Beş yüz ilə yaxın bir dövr ərzində qədim Azərbaycan dövlətinin paytaxtı olmuş bu şəhər bölgənin mədəniyyət və ticarət mərkəzi funksiyasını özündə saxlamaqdadır.





Bu şöhrətli diyarın sosial-iqtisadi, mədəni inkişafı sovet dönəmində və müstəqillik zamanında Azərbaycana rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Ulu öndərin Bərdəyə çoxsaylı səfərləri rayonun sürətli yüksəlişinə stimul vermişdir. Bərdə respublikanın ən iri pambıq istehsalçısı kimi şöhrət qazanmaqla yanaşı, həm də bölgənin mədəniyyət mərkəzinə çevrilmişdi. Rayon ərazisindəki qədim tarixə malik milli mədəni abidələr göz bəbəyi kimi qorunmaqla bərabər, tarixçi alimlər tərəfindən maraqla araşdırılır, qiymətli faktlar aşkarlanırdı. Bərdə bugünkü füsunkarlığı, gözəlliyi ilə baxanları heyran edir. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi sistemində islahatlar reallaşanda, yeni struktur layihələri həyata keçiriləndə regional mərkəz kimi məhz Bərdəyə üstünlük verildi. İndi Bərdə Regional Mədəniyyət və Turizm Mərkəzinə Tərtər, Yevlax rayonları və Mingəçevir şəhəri daxildir. Kifayət qədər böyük olan bu ərazidə dövlətin mədəniyyət və turizmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, Bərdə regional mərkəz funksiyasını uğurla reallaşdırır.

Bərdənin 3000 ildən çox yaşı olduğunu təkzibedilməz faktlarla, tutarlı dəlillərlə sübut edən tədqiqatçı alimlərin təbirincə desək, bu bölgədə hər daşın, hər qarış torpağın altında bir sirr yatır. "Qarabağın Bərdə şəhəri qədim tarixə, zəngin ənənəyə malikdir" deyən ulu öndər Heydər Əliyevin qayğısı ilə sürətlə inkişaf edib şöhrətə qovuşan Bərdə bu gün Prezident İlham Əliyevin qayğısı sayəsində yeni intibah dövrünü yaşayır. Azərbaycanın qədim dövlətçiliyini, zəngin mədəniyyətini özündə ehtiva edən tarixi abidələr qayğı ilə qorunur, bərpa edilir, eyni zamanda, milli memarlıq üslubunda möhtəşəm mədəniyyət müəssisələri inşa olunur, yaraşıqlı parklar, xiyabanlar salınır, nəhəng abadlıq-quruculuq layihələri həyata keçirilir. Son illərdə inşa olunmuş, böyük bir ərazini əhatə edən park-bulvar, Qəhrəmanlar parkı, Nüşabə parkı, Bayraq meydanı, mərkəzi meydan, yenidən qurulan "Allah, Allah" türbəsi, yeni incəsənət məktəblərinin yaraşıqlı binaları Bərdəyə xüsusi gözəllik verir.

Bərdə Regional Mədəniyyət və Turizm Mərkəzinin direktoru İlyas Hacıyev söhbət zamanı görülən işlərdən, qarşıda duran vəzifələrdən danışdı: "Həyatda ən böyük hakim olan zaman xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaqdır" fikrini təsdiq edir. Bu gün Azərbaycan idman ölkəsi kimi beynəlxalq aləmdə məşhurdur. Musiqimiz, mədəniyyətimiz yaxın-uzaq ölkələri fəth edir. Bu gün hər bir ölkə vətəndaşı azərbaycanlı olmağı ilə fəxr edir. Bütün bunlar həmişə qalib Heydər Əliyev siyasi kursunun real və məntiqi nəticələridir. Hazırda paytaxt Bakı ilə yanaşı, bölgələr də dövlətin davamlı qayğısı ilə dəyişir, gözəlləşir. Bərdənin bugünkü görkəmini beş il əvvəlki ilə müqayisə etmək qeyri-mümkündür. Regional Mədəniyyət Mərkəzinə daxil olan qədim "İpək yolu"nun üstündə yerləşən Yevlax da, nur şəhəri Mingəçevir də, gözəlliyi ilə düşmənlərimizin göz dağına çevrilmiş Tərtər də sürətli inkişaf, yüksəliş yolundadır.

Respublika Mədəniyyət və Turizm Nazirliyinin regional mərkəz olaraq qarşımıza qoyduğu vəzifələr son dərəcə şərəfli və məsuliyyətlidir. Geniş fəaliyyət dairəsinin başlıca istiqaməti xalqa göstərilən mədəni xidmətin səviyyəsini yüksəltmək, bölgəyə əcnəbi turistlərin marağını artırmaq üçün zəruri tədbirlər görməkdir. Musiqimizi, mədəniyyətimizi təbliğ və inkişaf etdirmək, milli tarixi abidələrimizi qayğı ilə qorumaq, folklorumuzu, mədəni irsimizi yaşatmaq da fəaliyyətimizin başlıca istiqamətlərindəndir". İ.Hacıyev qeyd etdi ki, elə əlamətdar gün, elə bayram olmur ki, musiqi kollektivləri yaxınlıqdakı hərbi hissələrin qonağı olmasınlar.





Dövlət qayğısı sayəsində mövcud mədəniyyət ocaqlarının müasir tələblər səviyyəsində yenidən qurulması uğurla davam etdirilir. Respublika Mədəniyyət və Turizm Nazirliyinin ayırdığı vəsait hesabına Bərdə Mədəniyyət Mərkəzi yenidən qurulur. Bərdədə şəhid Ziyafət Balıyevin adını daşıyan Yenidaşkənd kənd folklor evi, Yevlax Tarix-Diyarşünaslıq Muzeyi zövqlə təmir edilmişdir.

Musiqi beşiyi Qarabağın mərkəzi olan Bərdə bu gün çal-çağırlı, toy-büsatlı günlərini yaşayır. Bərdənin şöhrətli günləri yenidən qayıdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# ERMƏNİ SEPARATİZMİNİN 30 İLLİYİ




## Xocalının beş Milli Qəhrəmanından biri

Araz Səlimovu Xocalıda və ona yaxın ərazidə yaxşı tanıyırdılar. Yaşı o qədər də çox deyildi. 32 yaşı təzəcə tamam olmuşdu. Amma bu yaşın çərçivəsinə sığmayan əməlləri vardı. Xocalının ən çətin günlərində darda qalanlara, çətin vəziyyətə düşənlərə kömək etmişdi. Onları təhlükəsiz yerlərə çatdırmışdı. Belə adamların sayı bir deyildi, beş deyildi. Ona görə də Araz Səlimova müraciət edənlər yaxşı bilirdilər ki, darda qalmayacaqlar. Könüllülərdən ibarət batalyona yazılanda hər şeyi ölçüb-biçmişdi. Bilirdi ki, bu torpaq uğrunda ölmək olar və bu ölümü şərəfli yaşamaq qədər uca tuturdu.



O qədər əməliyyatlarda iştirak etmişdi ki... Özü də bu ərazini yaxşı tanıdığına görə onu ən çətin tapşırıqların yerinə yetirilməsinə göndərirdilər və inanırdılar ki, Araz tapşırılan işin öhdəsindən ləyaqətlə gələcək. Bircə şeydən tərəddüd edirdi. Deyirdi ki, sonuncu gülləni öz ürəyimə sıxaram, təki erməni quldurlarına əsir düşməyim. Ermənilərin törətdikləri açıq və gizli cinayətlərdən xəbəri vardı. Ən çətin döyüşlərdə açıq-aşkar hiss etmişdi ki, ermənilərin heç kəsə - nə qocalara, nə uşaqlara, nə də qadınlara güzəşti yox idi. Onların bircə məqsədi vardı: məhv etmək, öldürmək, günahsız adamlara cəza vermək...



1992-ci il fevral ayının 26-da bir daha sübut olundu ki, erməni quldurları ən ağır cinayətlərə əl atmaqdan belə çəkinmirlər. Xocalıda törədilən soyqırımı tarixin ən dəhşətli faciələrindən biridir. Bəzi faktları olduğu kimi sadalayaq: Xocalı soyqırımında 63 uşaq, 100-dən çox qadın, 76 qoca, bir sözlə, 613 Xocalı sakini qətlə yetirilib. Yaşayan bir şəhəri Yer üzündən silmək ermənilərin başlıca məqsədi olub. Bütün bunları vaxtında, vədəsində dünyaya çatdıra bilməsək də, o vaxtdan bəri çox işlər görülüb. Ermənilərin belə vəhşiliklərindən xəbəri olan Araz Səlimov dinc əhaliyə kömək etmək üçün yorulmaq bilmirdi. Sonuncu dəfə Əskərandan geriyə dönəndə düşmən mühasirəsinə düşdü. Onda qardaşı Fəxrəddinlə atası Bahadur kişi də yanında idi. Çətin vəziyyətdə qalmışdılar. Amma Araz son nəfəsinə qədər düşmənə asanlıqla təslim olmadı. Deyirlər ki, düşmənlər onu ələ keçirmək üçün bütün vasitələrdən istifadə edirdilər. Ona görə ki, Arazın iştirak etdiyi əməliyyatlarda düşmən xeyli itkiyə yol verirdi. Özü demişkən, biz ölməyə yox, öldürməyə gedirik. Elə bir düşmənlə üz-üzəyik ki, onlara zərrə qədər də güzəşt edə bilmərik.

Arazın çətin məqamlarda əməliyyatları uğurla başa çatdırması tez-tez baş verirdi. Batalyonda hamı ona inanırdı. Bilirdilər ki, Araz düşmənin mövqelərinə yaxşı bələddir. Bir dəfə atası Bahadur kişi çətin əməliyyatdan onu yayındırmaq istəmişdi. Amma Araz inadından dönməmişdi. Demişdi ki, Xocalını da, ona yaxın bütün əraziləri də biz qorumalıyıq. Bu yerləri bizdən yaxşı tanıyan yoxdur. Üç övladı var idi, hər dəfə döyüşə gedəndə onlarla halallaşırdı. Övladlarından bir qədər nigaran olsa da, bu yurdu heç nəyə dəyişmirdi. “Mən Xocalıda doğulmuşam. Son damla qanıma qədər bu doğma ocağımızı qoruyacağam” - deyirdi. Bəlkə də Xocalıda belə bir dəhşətli qətliam hadisəsi olmazdı. Fevralın 26-da hadisələr baş verən gecə Xocalıdan Bakıya kömək üçün zənglər olurdu. Bu gecə zənglərinə paytaxt o qədər laqeyd qalırdı ki, xocalılılar nə edəcəklərini bilmirdilər. Bircə çarələri qalmışdı: dağlara, yollara səpilmək, bir cığırın, izin axırına qədər getmək... Bəlkə də bu yolun son ucunu heç özləri də bilmirdi. Qarlı, şaxtalı, sazaqlı bir gün idi. Nə yaxşı ki, yollara az-çox bələdçilikləri var idi. Yoxsa heç sağ qalan olmazdı. O qədər adamı don vurmuşdu ki... Günahsız adamları sorğu-sualsız güllələyirdilər. Ermənilərin vəhşilikləri heç müharibə qanunlarına da uyğun gəlmirdi. Onları himayə edən sovet ordusunun 366-cı motoatıcı alayı güclü silahlanmışdı. Bütün bunların qarşısında əliyalın adamlar axıra qədər mətanətlə dayanmışdılar. Düşmənə asanlıqla təslim olmaq istəmirdilər. Xocalının həmin dövr icra hakimiyyəti başçısı olmuş Elman Məmmədov deyir ki, adamlar sonuncu tikəni bölürdülər, amma düşmənə təslim olmurdular. Həmin gecə 1275 nəfər əsir götürüldü. 130 uşaq valideynlərindən birini itirdi, 8 ailə məhv edildi. Bu faktları ona görə sadalayırıq ki, Xocalıda bütün qanunlar pozulmuşdu. İnsan haqları deyilən şey zərrə qədər də nəzərə alınmırdı.

Həmin günün səhərisi Xocalıdan gələn kiçik nümayəndə heyəti Prezident Administrasiyasında mətbuat konfransı keçirirdi. Azərbaycan televiziyasının çəkiliş qrupu ilə həmin tədbirdə iştirak edirdik. Elman Məmmədov, məhv olmuş şəhərin prokuroru Atakişi Atakişiyev Prezident Administrasiyasının geniş dəhlizində səlahiyyətli adam axtarırdılar ki, dərdlərini desinlər. Amma heç kəs onların fəryadını eşitmək istəmirdi. Həmin günlərdə paytaxtın başı vəzifə bölgüsünə qarışmışdı. Xocalı soyqırımı o qədər də yada düşmürdü. Elman Məmmədov əlacsız qalıb jurnalistlərdən kömək istəyirdi. Amma bilirdi ki, bizi sərt senzor nəzarəti gözləyir. Sonda Elman Məmmədovu və Atakişi Atakişiyevi İttifaqın Azərbaycandakı keçmiş canişini Viktor Polyaniçkonun qəbuluna göndərdilər. İlahi, təzada baxın... Sovet ordusunun 366-cı motoatıcı alayı ermənilərlə birgə ağır cinayət törədir, nəticəni yenə İttifaq canişini müzakirə edir. Hansı ədalətli qərardan söhbət gedə bilərdi? Bax, Xocalı belə təklənmişdi. Yalnız öz qüvvələrinə güvənən bu adamlar çarəsiz qalmışdılar. Hələ mühasirəyə düşəndə Araz Səlimov demişdi ki, atamı da, qardaşımı da itirsəm, Xocalını itirmək istəmirəm. Bura mənim ata-baba yurdumdur. Üç övladımın böyüdüyü məkandır. Biz sona qədər hər şeyi varisliklə qorumalıyıq. Araz kimi oğulların əqidəsi nə qədər möhkəm olsa da, kömәkləri az idi.

Xocalı barədə filmlər də çəkilib, kitablar da yazılıb, amma hələ deyəcəyimiz söz çoxdur. Ona görə ki, əsl həqiqətlər sona qədər təhlil olunmayıb. Hələ bu gün də 150 nəfərin itkin taleyi məlum deyil. Dünyanın beynəlxalq qurumları haqq-ədalət səsimizi axıra qədər eşitmək istəmirlər. Amma həqiqəti heç vaxt gizlətmək olmaz. Erməni lobbisi, onları müdafiə edənlər nə qədər güclü olsalar da, haqqın səsini batıra bilməyəcəklər.

Hər il fevralın 26-da Xocalının soyqırımı günü anılır, beynəlxalq ictimaiyyətə geniş məlumat verilir. Amma bununla da iş bitmir. Gərək belə bir təbliğatda fasilələr olmasın. Xocalını yaşatmaq istəyənlər onu hər gün anmalıdırlar. Vaxt, zaman bunu tələb edir. Bir də ki, Xocalının beş Milli Qəhrəmanının ruhu o günlərə qayıdışı tələb edir. Onlardan biri də Araz Səlimov idi... Üç övlad atası, Xocalının igid oğlu, Azərbaycanın Milli Qəhrəmanı!

**_Bəşir ŞƏRİFLİ,_**
**_“Azərbaycan”_**

## “O dünya”dan qayıdan var...

### *Girov götürülən həkim Məmməd Nağıyev yaralı xocalılılar üzərində adi iynə-sapla cərrahiyyə əməliyyatı da aparıb*



Xocalı dəhşətlərini yaşamış, girovluqda erməni vandallarının insanlığa yaraşmayan hərəkətlərini görənlərdən biri də Xocalı Rayon Mərkəzi Xəstəxanasının keçmiş baş həkimi Məmməd Nağıyev olub. O, Azərbaycan Tibb Universitetini bitirdikdən sonra, 1979-cu ildən Xankəndidə həkimliyə başlayıb. 1988-ci ildən “DQMV hadisələri” ilə əlaqədar ona qarşı da təzyiqlər artıb. Orada yaşayan soydaşlarımıza tibbi xidmət göstərmək üçün ermənilərin bütün təqib və həqarətlərinə dözərək iş yerini 1989-cu ilin yanvar ayına kimi tərk etməyib. Həmin tarixdən etibarən o, Xankəndi, Ballıca, Xənzək kəndlərinin əhatəsində, əslində, ermənilərin mühasirəsində qalan Cəmillidə peşə xidmətini davam etdirib. Ağdam-Şuşa yolu ermənilər tərəfindən bağlananda helikopterlə Xocalıdan Şuşaya uçar, oradan isə müxtəlif yollarla Cəmilliyə işə gedərdi.

...Cəmilliyə gedən yollar çox qorxulu idi. 1991-ci ildə Şəkidən Cəmilliyə köməyə gələn milis işçiləri ermənilər tərəfindən məhz o yolda, meşəlikdə güllələnmişdilər. Həmin il avqust ayının 23-də növbəti dəfə Şuşadan Cəmilliyə gedərkən ermənilər meşədə gizləndikləri yerdən çıxaraq avtobusu atəşə tutmuşdular. Avtobusdakı 21 nəfərdən 3-ü şəhid olmuş, 15-i isə müxtəlif dərəcədə ağır yaralanmışdı. Məmməd həkimin də həmin maşında olması yaralıları amansız və vaxtsız ölümün pəncəsindən xilas etmişdi. Çünki təcili olaraq yaralıları geriyə, Şuşa xəstəxanasına qaytara bilmişdilər.

Dağlıq Qarabağ Təşkilat Komitəsi yaradıldıqdan sonra da Məmməd Nağıyev erməni daşnakları ilə üz-üzə az qalmayıb: “Arkadi Volskinin rəhbərlik etdiyi Dağlıq Qarabağ Təşkilat Komitəsinin tətbiq etdiyi “komendant saatı” rejimi də xəstə üstünə getməyimizə mane olurdu. 1990-cı il fevral ayının 13-də gecə fin evlərinin birindəki xəstəyə baxıb qayıdırdım. Yolda Əsgəranın hərbi komendantı təcili yardım maşınımızı saxladıb yoxladı. “Hərbi rejimin qanunu”na tabe olmadığımızı irad tutanda bildirdim ki, xəstə yanından gəlirik. O, qəzəb və hiddətlə dedi: “Sən kimsən ki, komendant saatını pozursan?!” O, mənə inanmadı və xəstəni görmək üçün birlikdə geri qayıtmağımızı əmr etdi. Biz xəstə olan evə getdik. Komendant xəstə uşağı gördükdən sonra bizi yenə də hədələdi: “...Bir də komendant saatında xəstə üstünə getsən, cəzan ağır olacaq!”

Verdiyim cavab onu özündən bir az da çıxartdı. Əsgəranda 3 gün kamerada saxlanmağım da məhz həkim kimi andıma sadiqlik nümayişim idi”.

Məmməd Nağıyev o dəhşətli illəri və müdhiş gecəni yaddaşına ağrı-acı ilə yazıb. Deyir ki, Xocalı özünümüdafiə taboru yaradılanda orada tibbi xidmət rəisi kimi fəaliyyət göstərib. Əsir düşməsi də məhz tibbi xidməti ilə bağlı olub: “O dəhşətli gecə, təxminən saat 4 radələri, yəni səhərə yaxın digərləri kimi, biz də mühasirədən çıxmaq üçün Qarqar çayını keçib meşələrə üz tutmuşduq. Təxminən 150 nəfər idik. Təbiətin də o gecə sanki xocalılılara qəzəbi tutmuşdu: soyuq insanı qılınc kimi kəsirdi. Yalın ayaqları don vurmuşdu, ona görə də çoxu taqətdən düşmüşdü. Erməni vandalları isə meşədə pusquda dayanmış, yolları kəsmişdilər. Camaata qarşı hər cür vəhşilik edir, alçaqcasına qocaya, cavana, uşağa, hamilə qadınlara belə fərq qoymadan atəş açırdılar. Xocalılıları o gecə son nəfərinədək qırmaq istəyirdilər. İki gün idi ki, meşədəydik. Aclıq, soyuq, şaxta çoxlarını taqətdən salmışdı. Ayaqları buz bağlayan qocaları irəli aparmaq olmurdu. Fevralın 27-də Dəhraz kəndi yaxınlığında erməni quldurları ilə üz-üzə gəldik. Atışma başlayanda yaxınlıqdakı dərəyə endik. Birdən məndən irəlidə gedən qadının on yaşlı uşağını vurub yaraladılar. Uşağın yarasını sarımaq üçün ona tərəf sürünəndə güllə papağımın günlüyünü deşib keçdi. Bir qədər gözləyib uşağa tərəf yenidən süründüm və yarasını sarıdım. Uşağa baxdığımdan ləngimişdim”...

O gecə mühasirəni yara bilməyən xocalılılardan biri də Məmməd həkim oldu. “O dünyadan gələn” həkim, aradan illər keçsə də, gördüklərindən söz açmağa çətinlik çəkir. Girovluq həyatında da o, həkim kimi peşə andına sadiq qalaraq 7 nəfər ağır yaralı soydaşımızı amansız ölümün pəncəsindən qurtarıb. Hətta Rövşən adlı girovun yarasından axan qanı dayandırmaq üçün burada cərraha da çevrilib: adi iynə-sapla onun yarasını tikib və vaxtsız ölümün qanlı pəncəsindən xilas edib: “Girov götürdükdən sonra ermənilər bizi bir ictimai binaya yığıb üstümüzdəki qiymətli əşyaları əlimizdən aldılar. Hətta bəzilərinin qızıl dişini adi kəlbətinlə çıxarmaqdan çəkinmirdi o vandallar! Əsir götürüldüyümüz təxminən bir saat olardı. Beş-altı erməni dığası içəri soxulub qışqır-bağır saldılar. Anlatdılar ki, hansınınsa birinin qohumu bizimkilər tərəfindən öldürülüb. Ona görə də onun qisasını almağa gəliblər. Bir erməni quldurunun məhv olmasına görə bizdən 13 nəfəri bayıra çıxarıb güllələdilər. Daha dəhşətlisi isə Mesxeti türkü Əhməd adlı bir nəfərin başını kəsib top kimi oynatmaları idi. Baxmaq olmurdu o mənzərəyə. Vəhşiliyin ən alçaq forması idi. Növbə, deyəsən, mənə çatmışdı. İçəridən avtomatın qundağı ilə məni də vurub bayıra atdılar. Bizim dəstədə pulemyotun kimdə olduğunu soruşdular. Bilmədiyimi dedim. Yıxılana qədər döyüb sonuncu dəfə xəbərdarlıq etdilər: “Əgər 15 dəqiqəyə kimi deməsən, başın kəsiləcək!” Mən içəri qaytarılana kimi pulemyotçunun kimliyi artıq onlara məlum olmuşdu. Buna baxmayaraq, məndən əl çəkmək fikirləri yox idi. Həkim kimi döyüşçülərimizə yardım etməyim onları azğınlaşdırmışdı. O qədər döymüşdülər ki, yerə yıxılmışdım. Biri cibindən iri bıçaq çıxarıb sinəmə çökmüşdü. Bu an bir maşın gəldi. İçərisindən iki nəfər mülki geyimli düşüb bizə yaxınlaşdı. Ermənicə nə danışdılarsa, onlar məni yerdən qaldırıb içəri, camaatımızın yanına itələyib saldılar”.

...O günlər arxada qalsa da, həmin yaşantılar öz dəhşətləri ilə Məmməd Nağıyevin yaddaşına qan rəngində yazılıb. 1992-ci ilin may ayında Xocalı taborunun yenidən bərpasında iştirak edən həkim 1995-ci ilə kimi Milli Ordunun sıralarında, əsasən də ön cəbhədə - Ağdam bölgəsində düşmənlə üz-üzə dayanan əsgərlərimizlə çiyin-çiyinə olub, Qaraqaya, Şelli, Naxçıvanik, Pircamal, Aranzəmin, Abdal-Gülablı, Bağbanlar, Fərrux, Papravənd və Şahbulaq uğrunda gedən döyüşlərdə onlarla yaralıya yerində ilk tibbi yardım göstərib. O, bu gün xocalılıların sağlamlığının keşiyində həm də “Azərbaycan Bayrağı” ordenli, əməkdar həkim kimi dayanıb, təqaüddə olsa da...

**_Məhəmməd NƏRİMANOĞLU,_**
**_“Azərbaycan”_**

## ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupun həmsədrləri bəyanat veriblər

ABŞ Konqresində Azərbaycan üzrə İşçi Qrupun həmsədrləri - Pensilvaniya ştatından konqresmen Bill Şuster (respublikaçı) və Tennessidən Stiv Kohen (demokrat) 20 Yanvar faciəsinin 28-ci və Xocalı qətliamının 26-cı ildönümü ilə bağlı ayrı-ayrılıqda bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, Bill Şuster bəyanatında ABŞ-ın Azərbaycan kimi müttəfiqinin tarixində iki faciənin ildönümünə diqqət çəkib. O, sovet imperiyası rejimi əleyhinə qiyamın susdurulması məqsədilə 1990-cı il yanvarın 20-də Bakıya ordu yeridildiyini bildirib. Vurğulayıb ki, imperiyanın silahlı qüvvələri mülki əhaliyə, xüsusilə qadın və uşaqlara atəş açıb, xəstəxanaları və təcili yardım maşınlarını gülləyə tutublar. Nəticədə 147 nəfər ölüb, 744 nəfər yaralanıb, 800-dən çox insan qanunsuz həbs olunub, naməlum sayda insan itkin düşüb. Lakin bütün bunlar Azərbaycan xalqının iradəsini qıra bilməyib və ölkə dövlət müstəqilliyini bərpa edib.

Bundan əlavə, 1992-ci il fevralın 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərinin erməni silahlı qüvvələri tərəfindən blokadaya alındığı, yüzlərlə qadın, uşaq və qocanın amansız qətlə yetirildiyi, mindən çox insanın əsir düşdüyü konqresmen Şusterin bəyanatında qeyd olunub. Sənəddə, həmçinin Xocalı faciəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə törədilmiş ən böyük qətliam olduğu vurğulanıb. Daha sonra bəyanatda Azərbaycanın 11 sentyabr terror aktlarından sonra ABŞ-a dəstək və başsağlığı verən ilk ölkələrdən biri olmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Konqresmen Stiv Kohenin bəyanatında Azərbaycanda milli istiqlal hərəkatını boğmaq məqsədilə 1990-cı il yanvarın 20-də sovet ordusunun Bakı şəhərinə yeridildiyi, dinc əhaliyə atəş açıldığı, tibb müəssisələri daxil olmaqla mühüm infrastrukturun dağıdıldığı vurğulanıb, konkret faktlar göstərilib. Konqresmen “Human Rights Watch” təşkilatının faciə ilə bağlı hesabatına istinadla, həmin hadisəni sovet imperiyasının kollektiv cəza üsulu və SSRİ-yə daxil olan digər respublikalardakı müstəqillik hərəkatları üçün xəbərdarlıq kimi qiymətləndirib.

Stiv Kohen həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinə 1992-ci il fevralın 26-na keçən gecə erməni silahlı qüvvələrinin hücum etdiyini, 613-dən çox dinc sakinin vəhşicəsinə öldürüldüyünü qeyd edib. Yüzdən çox insanın işgəncələr nəticəsində şikəst olduğunu, yüzdən çox uşağın bir valideynini, 25 uşağın isə hər iki valideynini itirdiyini, ən azı 8 ailənin tamamilə məhv edildiyini bildirib.

Sonda konqresmen bütün bunlara baxmayaraq, Azərbaycanın güclü iqtisadiyyatı olan müstəqil dövlətə və ABŞ-ın müttəfiqinə çevrildiyini diqqətə çatdırıb. Konqresmen öz bəyanatında ABŞ ilə Azərbaycan arasında əməkdaşlığa misal olaraq kütləvi qırğın silahlarının yayılmaması, Kosovo, İraq və Əfqanıstanda ABŞ qüvvələri ilə çiyin-çiyinə xidmət edən silahlı qüvvələrin təmin edilməsi, Əfqanıstandakı qüvvələrin təchizatı üçün Azərbaycanın hava məkanından tranzit məqsədilə istifadə olunması, Xəzər dənizindən İtaliyaya “Cənub qaz dəhlizi”nin inşası vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təmin olunması, eləcə də İsrailin neft istehlakının təxminən 40 faizinin təchiz olunması kimi məsələlərə diqqət çəkib. Stiv Kohen Azərbaycanda yəhudi icmasının əmin-amanlıq şəraitində yaşadığını və Azərbaycanın İsraillə yüksək səviyyədə münasibətlərini vurğulayıb. Kohen Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin önəmli olduğunu vurğulayıb.

## ABŞ Konqresinin daha bir üzvü Xocalı faciəsi ilə bağlı bəyanat verib

ABŞ Konqresində Şimali Karolina ştatını təmsil edən respublikaçı Virciniya Foks Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı bəyanatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, konqres üzvü 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində dinc sakinlərin, o cümlədən qadın, uşaq və qocalar daxil olmaqla 613 nəfərin qətlə yetirildiyini vurğulayaraq, bu insanların xatirəsinin anılmasının vacibliyini qeyd edib.

Virciniya Foks, həmçinin Azərbaycanın ABŞ-ın etibarlı dostu və dəyərli tərəfdaşı olduğunu bildirərək, onun beynəlxalq terrorizmə qarşı mübarizədə hər zaman ABŞ-a dəstək olduğunu, eləcə də regional iqtisadi inkişafa töhfə verdiyini və “Yeni İpək yolu”nun bərpasında səylər göstərdiyini vurğulayıb.

Sonda Konqres üzvü Xocalı qurbanlarının xatirəsini yad edərək, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib.

## Xocalı soyqırımından bəhs edən “Zülmətdən qaçarkən” filmi Kaliforniyanın Monterey şəhərində nümayiş etdirilib

ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərinin Sülh və Ədalət Mərkəzində Xocalı soyqırımına həsr olunan anım tədbiri keçirilib. Azərbaycanın Los Ancelesdəki baş konsulluğunun təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbirdə Xocalı faciəsinin dəhşətlərindən bəhs edən, ötən il Kaliforniyanın Los Anceles şəhərində amerikalı kinematoqraflar tərəfindən istehsal olunmuş “Zülmətdən qaçarkən” sənədli filmi nümayiş etdirilib. Xatırladaq ki, bu film ABŞ-da Xocalı soyqırımı mövzusunda çəkilmiş ilk ekran əsəridir.

Tədbiri açan Monterey Şəhər Şurasının keçmiş üzvü Nensi Selfric 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələri tərəfindən dinc azərbaycanlılara qarşı həyata keçirilmiş və müasir dövrün ən dəhşətli cinayətlərindən biri olan Xocalı qırğını haqqında ətraflı məlumat verərək, gələcəkdə buna bənzər faciələrin baş verməməsi, günahsız insanların öldürülməməsi üçün Xocalı həqiqətlərinin bütün dünyaya çatdırılmasının vacibliyini vurğulayıb.

Sonra çıxış edən Montereyin Yüksək Hərbi Dənizçilik Məktəbinin tələbəsi Emin Qurbanzadə Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında danışaraq, işğal nəticəsində çoxlu sayda dinc azərbaycanlının amansızcasına qətlə yetirildiyini, öz torpaqlarından didərgin düşdüyünü, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və bu təcavüzü pisləyən müvafiq qətnamələrə Ermənistan tərəfindən hələ də əməl edilmədiyini bildirib.

Sonra “Zülmətdən qaçarkən” filmi nümayiş etdirilib. Filmin süjet xətti Xocalı soyqırımının canlı şahidləri ilə aparılmış müsahibələr üzərində qurulub. Eyni zamanda, Xocalıda törədilmiş dəhşətli hadisələrlə bağlı ABŞ-ın ştat qanunvericilərinin və tanınmış din xadimlərinin bu soyqırımını pisləyən açıqlamalarına, tədqiqatçı alim və jurnalist rəylərinə yer verilir, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində görülən işlər işıqlandırılır.

Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Monterey şəhəri 2011-ci ildə Lənkəran şəhəri ilə qardaşlaşmış şəhərlər münasibətləri qurub.

# ERMƏNİ SEPARATİZMİNİN 30 İLLİYİ



1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar zamanı şəxsən 5 nəfəri qətlə yetirən, 8 qadını zorlayan E.Qriqoryan adi cani yox, bir neçə dövlətin və erməni diasporunun hazırladığı xüsusi təyinatlı casus idi.

# Xüsusi təyinatlı casus Qriqoryan

Biz - bu gün ömrünün ixtiyar yaşına çatanların hamısı, Sumqayıt hadisələrinin, ümumiyyətlə, Azərbaycan tarixinin son yarım əsrində baş verən bütün soyqırımları, qanlı təxribatlar və gərgin təlatümlərin canlı şahidiyik. Hər birimizin o illərdə gördüyü və yadda saxladığı hadisələr, süjetlər, müxtəlif səhnələr zaman keçdikcə qiymətli tarixi faktlara, düşməni ittiham edən və özümüzə haqq qazandıran sənədlərə çevrilir. Gördüklərimizi, eşitdiklərimizi və bildiklərimizi yaddaşlardan vərəqə köçürüb ictimailəşdirdikcə mətbuatın müqəddəs missiyasını yerinə yetirmiş oluruq. Zamanın aynasında 30-40 il əvvəl mənasız görünən ən sıravi fakt belə aradan onilliklər keçdikdən sonra qiymətli sübuta, dəlilə çevrilə bilir.

Bu baxımdan məlum Sumqayıt hadisələrinin amansız və qəddar icraçısı Qriqoryanı "baş qəhrəman" kimi bir də nəzərdən keçirməklə yenidən gündəmə gətirmək zərurətə çevrilir. Onun amansız qatil, qəddar cani, hadisələrin bilavasitə iştirakçısı və rəhbəri olduğu şəksiz dəlillərlə sübut edilmiş, hökm verilmişdir. Lakin erməni mətbuatının illər boyu bu qatili təmizə çıxarmaq cəhdlərini nəzərə alsaq, hadisələrin 30 illiyi ərəfəsində bu mövzuya bir daha toxunmaq yerinə düşərdi.

Məlum iğtişaşlar zamanı ölkədəki psixoloji durumu xatırlasaq, öncə yada düşən respublikanın müti rəhbərlərindən tutmuş, sıravi vətəndaşınadək hamının şokda olması, özünü itirməsi idi. Necə oldu ki, bu hadisələr ildırım sürəti ilə baş verdi və qanunun aliliyi ilə onun qarşısını almaq mümkün olmadı? Bu sualların hamısına zaman ötdükcə cavab tapıldı.

Maraqlı deyilmi, Ermənistandan yüz minlərlə azərbaycanlı qovulanda susan, lal duran dünyanın aparıcı KİV-ləri Sumqayıt hadisələrində misilsiz operativlik nümayiş etdirdi, az qala canlı yayım sürəti ilə hadisələri qərəzli və birtərəfli işıqlandırdı. Aparıcı KİV-in aramsız yaylım atəşinə tutulan, ən ağır cinayətlərdə ittiham edilən günahsız bir xalq müharibə səviyyəsində aparılan informasiya hücumunun qarşısında aciz qalmışdı.

Qətlləri şəxsən törədən, iğtişaşlara rəhbərlik edən E.Qriqoryan kimi qatil isə respublikaya qarşı sürülən saysız ittihamların fonunda arxa plana keçdi, kölgə kimi əriyərək qeyb oldu. Onun şəxsən erməni əsilli 5 nəfəri qətlə yetirməsi, 8 qadını zorlaması, bir dəstə rəhbəri kimi törədilmiş bütün cinayətlərdə əlinin olması səhnə arxasında qaldı. Ona görə ki, əsas hədəf kimi tolerant bir xalq seçilmişdi və o da bütün istiqamətlərdən atəşə tutularaq qəddarlıqla qamçılanırdı.

Doğrudanmı, Qriqoryan Sumqayıt hadisələrində adi fiqurlardan, belə deyək, sıravi cinayətkarlardan biri idi və onun kimliyinin araşdırılması o qədər də önəmli deyil? Qarabağ hadisələrindən bir neçə il əvvəl Qorbaçovu üzük qaşı kimi əhatəyə alan erməni əsilli məsləhətçilərindən biri sayılan Aqambekyanın Parisdə "Humanite" qəzetindəki çıxışına qayıdaq. Qarabağın ermənilərə verilməsini dəstəkləyən bu məqalə artıq o demək idi ki, Daşnaksütyun dünyanın məşhur beyin mərkəzləri və dövlətləri ilə Azərbaycan torpaqlarının işğal edilməsinin yeni layihəsinin həyata keçirilməsinə razılıq əldə etmişdir. Əgər yüz il əvvəl planetimizdə yalnız müharibə başlayandan sonra strategiya işlənirdisə, XX əsrin sonunda vəziyyət tamamilə əksinə idi. Yəni, əvvəlcə yüzlərlə beyin mərkəzi münaqişə ocaqlarının və müharibələrin layihəsini cızır, strategiyasını işləyir, hədəflərini təyin edir, ictimai şüura təsir vasitələrini hazırlayır və ildırım sürəti ilə düşündüklərini reallaşdırırlar. Kütlə gözlənilməz fakt qarşısında qalır, hücuma məruz qalan ölkə nə baş verdiyini anlamaqda acizlik çəkir. Nəzərə alsaq ki, ermənilərin tarixən bütün aparıcı ölkələrin xüsusi xidmət orqanları ilə ciddi əməkdaşlıq təcrübəsi olub və bu iş birliyində xarici kəşfiyyat strukturlarının maraqlarını təmin etməklə yanaşı, "böyük Ermənistan" ideyasının reallaşması üçün həm pay, həm də dəstək ala biliblər. Bu barədə minlərlə fakt mövcuddur və onları sadalamağa ehtiyac da yoxdur.

Məhz bu amillər belə qənaətə gəlməyə əsas verir ki, Qriqoryan adi cani yox, erməni diasporu tərəfindən hadisələrdən bir neçə il əvvəl kəşfiyyatçı-terrorist, casusluğa cəlb edilən xüsusi agent kimi fəaliyyət göstərmişdir. O, hansı xüsusi keyfiyyətlərinə görə kəşfiyyata cəlb edilə bilərdi? Azərbaycan tərəfi onun xüsusi hazırlıq keçməsi barədə faktları ortaya qoyduqca, Ermənistan tərəfi daha israrla Qriqoryanı savadsız, az qala, əqli inkişafdan qalan yararsız bir cani olduğunu sübut etməyə çalışır. Hər iki tərəfin yanaşması qütblüdür və bir-birinə münasibətdə ziddiyyət təşkil edir. Biz onun erməni olduğunu deyirik, erməni mənbələri isə bunu hər vəchlə inkar edərək, qatilin atasının 1969-cu ildə öldüyünü və həbsə düşən 3 qardaşın nəzarətsiz böyüdüyünü qabardırlar. Erməni mətbuatı Qriqoryanın bu üzdən ermənilərə heç bir aidiyyəti olmadığını israr edir, əksinə, onun məhz ermənilərə nifrət etdiyini şişirdir, müxtəlif faktları öz xeyirlərinə təhrif və şərh edirlər. İğtişaşlar zamanı Qriqoryanın şəxsən qətlə yetirdiyi 5 nəfərin və zorladığı 8 qadının hamısının milliyyətcə erməni olması erməni tərəfinin əlində uğurlu kartdır. Amma nədənsə Qriqoryanın hədəfə aldığı qurbanların, hücum etdiyi evlərin hamısı "Qarabağ" və "Krunk" təşkilatlarına pul köçürməkdən imtina edən ermənilərin olduğu üzə çıxır. İstintaq sənədlərindən görünür ki, bu təşkilatlara mütəmadi pul köçürən ermənilər üçün hadisələr vaxtı heç bir təhlükə yaranmamışdı. Ermənilərin Qriqoryandan "imtina etməsi" və eyni zamanda, onun "erməni terrorçuları"na yardım etməkdən boyun qaçıran erməniləri hədəfə alması caninin xüsusi təyinatlı terrorçu-təxribatçı olmasını təsdiq edən sübutlardandır.

Bu məqamda Türkiyə hökumətində Daşnaksütyunun bu ölkəyə xəyanət etmək istəməyən, daşnaksütyunla əməkdaşlıqdan boyun qaçıran vəzifəli ermənilərin qətlə yetirilməsi yada düşür. Yəni, Qriqoryanın da "yaxşı erməni" ilə "pis erməni" arasındakı seçmə qətlləri, yüz il əvvəlki erməni daşnaklarının terror texnologiyasından məharətlə istifadə etməsi onu göstərir ki, bu adam həbsxanada, həm də azadlıqda erməni diasporunun terrorçu qanadı ilə sıx əlaqədə olub, ciddi hazırlıq keçib və mükəmməl terrorçu-təxribatçı kimi yetişib.

Erməni mənbələri qatilin anasının ifadələrinə istinad edərək onun ərinin qohumları ilə heç bir əlaqəsi olmadığını, hətta rus olduğu üçün ər tərəfinin qohumlarının xoşuna gəlmədiyini israr edirlər. İnana bilirsinizmi ki, həmişə ruslarla qohumluğa can atan, bununla öyünən ermənilərin birdən-birə üzü 180 dərəcə dönsün və bu qohumluğa nifrət etsinlər? Sən demə, hətta əri dünyasını dəyişəndə deyibmiş ki, qohumları bizə heç vaxt kömək etməyəcək. Uşaqlar da ata qohumlarına nifrət edibmiş. Görünür, erməni mətbuatı üçün bu gün də Qriqoryanın tarixi vətəni ilə heç bir əlaqəsinin olmamasının sübutu ölüm-dirim məsələsidir. Əslində, erməni mətbuatının bu səyləri bir daha təsdiq edir ki, Qriqoryanın Ermənistanla təsəvvür etdiyimizdən daha uzunmüddətli və sıx bağlılıqları mövcud olmuşdur. Şübhəsiz ki, Qriqoryan həqiqətən də xüsusi xidmət orqanlarının əməkdaşıdır.

Ümumdünya erməni diasporunun kəşfiyyatçı-terrorist qanadının, keçmiş SSRİ-nin TDK-si və Ermənistan xüsusi xidmət orqanlarının, Sumqayıt şəhərində birgə törətdiyi cinayətlərdən 30 il ötməsinə baxmayaraq bu gün də Qriqoryanı təmizə çıxarır, onu ümumiyyətlə, Sumqayıt hadisələrinin tarixindən silməyə çalışırlar. Hətta onun nə ermənilərə, nə də Ermənistana heç bir aidiyyəti olmadığını bəyan edirlər. 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər həyatını itirdi. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub.

Sumqayıt hadisələri Ermənistan xüsusi xidmət orqanlarının, erməni diasporunun bir neçə ilə dəqiqliklə hazırlayıb reallaşdırdığı ssenari idi. Hadisələrin bilavasitə şahidlərinin ifadələrindən də görünür ki, iğtişaşları idarə edən və istiqamətləndirən, nəzarətdə saxlayan "qara plaşlı" şəxslərin heç biri sumqayıtlı deyildi və onlar öz aralarında bəzən erməni dilində danışsalar da, ermənilərin əleyhinə təbliğatı Azərbaycan dilində aparırdılar. Camaata spirtli içkilər, güclü təsiredici psixotrop həblər, dəmir parçaları və s. paylayırdılar. Yəni, Qriqoryan qanlı ssenari üçün vacib olan bütün dəstəyi alırdı.

Ümumiyyətlə, Qriqoryanın xarakterini hansı tərəfdən araşdırsaq onun xüsusi hazırlıq keçən erməni casus-təxribatçı olmasını təsdiq edən çoxsaylı faktlarla üzləşirik. Zahiri görkəminə görə ermənidən daha çox digər millətlərə oxşayırdı, yaxınlarından başqa onu hamı ləzgi kimi tanıyırdı. Əslində, belə təqdimat da qatilin xüsusi təyinatlı agent olmasına dəlalət edirdi. Ona görə də hadisələr zamanı o heç kimdə şübhə doğurmadan kütlələri asanlıqla qanlı cinayətlərə sarı qızışdırdı və arxasınca apardı.



Zərərçəkən Mejlumyan istintaqda onu zorlamış Eduard Qriqoryanı göstərir.

İstintaq prosesində Qriqoryanın hadisələrə rəhbərlik etməsi, dəstə üzvləri arasında xüsusi nüfuza malik olması, hamının onun qəzəbindən qorxması asanlıqla sübut edildi. O, məhkəmə iclaslarında çarpaz üzləşmələrdə üzünə duranları bir baxışı ilə susdura bilir, ifadələrini dəyişməyə asanlıqla məcbur edirdi. Digər təqsirləndirilən şəxslər ifadə verərkən gözlərini Qriqoryandan çəkmir, onun qəzəbli müdaxiləsi ilə üzləşməkdən çəkinirdilər. Qatilin üzü sərtləşən kimi ifadələrini tələsik dəyişirdilər. Bütün bunlar onun xüsusi psixoloji hazırlıq keçən agent olmasını təsdiq edən ciddi dəlillərdir.

Digərləri cinayətlərini səmimi etiraf etsə də, Qriqoryan bütün suallara cavab verərkən, az qala telepat, mahir şahmatçı kimi prokurorun əvvəlcədən fikrini oxuyur, ona veriləcək sualların nədən ibarət olacağını hiss edirdi. Ən çarpaz sualdan da asanlıqla yayına bilir və heç vaxt səhv buraxmırdı, ziyanına ifadə vermirdi. Onun heç vaxt heç bir suala anındaca cavab verməsini heç kim görmədi. Ciddi düşünür, beynində cavabı formalaşdırır, götür-qoy edir və yalnız sonra cavab verirdi. Bütün bunlar müttəhimlər kürsüsündə erməni mətbuatının yazdığı kimi kütbeyin, savadsız məktəblinin ifadələrindən daha çox peşəkar və uzunmüddətli hazırlıq keçən peşəkar casusun direşmələrini xatırladırdı. Niyə də dirənməsin ki? O, arxasında hansı qüvvələrin dayandığını və hansı səviyyələrdə müdafiə olunduğunu yaxşı bilirdi. İti ağıl, çevik intuitiv kəşfiyyatçı bacarıqları nümayiş etdirirdi. Hətta onu dindirənlər də yaxşı anlayırdılar ki, qarşılarındakı müttəhim adi qatil yox, uzun müddət xüsusi hazırlıq keçən xarici xidmət orqanlarının ən qiymətli agentlərindən biridir. Onun səviyyəsi, ağlı bütün cinayət məsuliyyətlərinə cəlb edilənlərin birlikdəki intellektual səviyyəsindən qat-qat üstün idi. Hələ əsgərlik illərində komandirlərini saymayan, əmrlərə itaət etməyən, hərbi hissədə özünü avtoritet və qeyri-qanuni nüfuz sahibi kimi aparan bu qatil bütün dindirilmələrdə, üzləşmələrdə bircə an belə ruhdan düşmür, sınmır, yeri gələndə isə hamını ələ salmağa çalışırdı. Qriqoryan şəksiz ki, bir neçə dövlətin xüsusi xidmət orqanlarında çalışan erməni əsilli yüksək rütbəli kəşfiyyatçılar tərəfindən idarə olunan lazımlı terrorçu-təxribatçı idi.

Bircə o faktı qeyd edək ki, keçmiş Sovet İttifaqının təhlükəsizlik xidmətində qulluq edən erməni əsilli generalların sayı 20-yə çatırdı. Bu rəqəmi yadınızda saxlayın və Qriqoryanın Azərbaycandan çıxarılması marşrutunu izləyin.

Əks-kəşfiyyatda "yükün çıxarılması" deyilən bir termin var. Bu xarici ölkədə hər hansı vacib adamın oğurlanması, ya da xüsusi tapşırığı yerinə yetirən kəşfiyyatçının əməliyyat başa çatan ölkədən təcili çıxarılması deməkdir. Əməliyyat uğursuz icra edildikdə bir qayda olaraq ölkənin ifşa edilməməsi üçün kəşfiyyatçı sadəcə, ləğv edilir. Qriqoryan isə heç kimin ağlına gəlməyən tərzdə qüsursuz əməliyyat həyata keçirmişdi. Buna görə də onu mövcud qanunvericiliyin əleyhinə olaraq, təcili olaraq Azərbaycandan Moskvaya aparırlar. Orada oxunan hökm isə qatili ölüm cəzasından xilas edir. 1991-ci ildə cəza müddətinin çəkilməsi üçün Qriqoryan Ermənistana ötürülür.

Erməni mətbuatının Qriqoryanı ermənilərə nifrət edən biri kimi təqdim etmələrini nəzərə alsaq, belə düşünə bilərik ki, burada ona qarşı ya yeni ittiham irəli sürüləcək, ya da ki nə vaxtsa gecə yarısı yerində doğrayıb xəncərləyəcəklər. Amma Ermənistan qatilindən qisas almaq, onunla elə öz dilində danışmaq əvəzinə, gözlənilmədən onu azadlıqla mükafatlandırır!!! Bu, bir daha onu təsdiq edir ki, Qriqoryan həm Yerevan, həm də Moskva üçün vacib fiqur idi. Beləliklə, onun kəşfiyyatçı kimi xilas edilməsi, azadlığa buraxılması asanlıqla baş tutur. Qriqoryan isə tarixi vətənindəki xəfiyyə rəhbərlərinin əlindən azadlıq mükafatını aldıqdan sonra kabab çəkib kef içində yaşamaq üçün yenidən Rusiyanı seçir. Adi qatili ağır cinayətlərin məngənəsindən xilas etmək mümkün deyil, lakin E.Qriqoryan erməni terroru tarixində ən uğurlu qətllərin əvəzsiz müəllifi kimi cinayət törətdiyi şəhərdən çıxarıldı, azadlığa buraxıldı, haradasa Rusiyada eyş-işrətlə dolu sakit bir həyatla mükafatlandırıldı.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Ağ tüstü"nün qara zəhəri

## Siqaretə qarşı mübarizə Azərbaycanda dövlət siyasətinin prioritetlərindən birinə çevrilir

*Əvvəli 1-ci səh.*

Artıq XIX əsrin ortalarından dünyada (Amerikadan başlayaraq) sənaye üsulu ilə siqaret istehsal edilməsinə, bir əsr sonra isə müasir siqaretlərin yaranmasına başlanılıb. Bundan sonra isə dünyanın bir çox ölkələrində tütün plantasiyaları salınıb, fabriklər tikilib, tütün məmulatlarının istehsalı artıb.

Azərbaycanın kənd təsərrüfatında isə tütündən çox-çox əvvəllər istifadə olunmağa başlanılsa da, tütün fermentasiya zavodları, kombinatlar əsasən sovet hakimiyyəti illərində tikilib. 1970-1980-ci illərdə tütün istehsalı yüksək səviyyəyə çatıb. İllər keçdikcə tütündən istifadə edənlərin sayı digər ölkələrlə yanaşı, Azərbaycanda da sürətlə artıb, yüz minləri ötüb. Statistik məlumatlara görə, dünyada əhalinin 22, Azərbaycanda isə 35 faizə yaxını siqaret istifadəçisidir.

### Bir udumda 4000 zəhərli kimyəvi maddə...

Nəhayət, zaman-zaman insanlara məlum oldu ki, onların uzun illər, əsrlər boyu istifadə etdikləri siqaret orqanizmin ən təhlükəli düşmənidir. Anladılar ki, siqaret dünyanın elə "qida"sıdır ki, heç bir faydalı, xeyirli xüsusiyyəti yoxdur. Siqaret tüstüsündə təxminən 4000 (!) zəhərli kimyəvi maddə və birləşmə vardır ki, bunların 250-si konkret olaraq insan sağlamlığı üçün çox zərərli, 43-ü kanserogen (xərçəng törədici) xassəli, 30-u isə təbii zəhər kateqoriyasına aiddir. Həkimlərin gəldiyi qənaətə görə, siqaret bir çox bəlaların, xüsusilə də ağ ciyər xərçənginin, xroniki bronxitin və ürək xəstəliklərinin əsas baiskarıdır.

Dünyada ağ ciyər xərçəngindən ölənlərin 90, bronxitdən həyatını itirənlərin 75, ürək-damar fəsadlarından ömrü yarımçıq bitənlərin 25 faizinin səbəbkarı da siqaretdir. Bu gün tütün dünyada böyüklər arasında on nəfərdən birinin ölümünə səbəb olur və səkkiz aparıcı ölüm səbəbinin altısı üçün risk amilidir. Hər il 6 milyondan çox insan tütün tüstüsünün təsiri nəticəsində yaranan xəstəliklərdən ölür, onlardan 600 min nəfəri ətrafa yayılan ikinci tüstü ilə nəfəs alan siqaret çəkməyən insandır. XX əsrdə tütünlə bağlı səbəblərdən 100 milyon insan dünyasını dəyişib. Təcili tədbirlər görülməzsə, bu əsrin sonunadək tütün 1 milyarddan çox insanı məhv edə bilər.

Demək olar ki, siqaretdən istifadənin zərərləri haqqında faktlar az qala ən ağır xəstəlik törədicisindən də çoxdur və bu barədə istənilən qədər yazmaq olar. Bəlkə də siqaret silahdan sonra yeganə kəşfdir ki, ancaq öldürür, fərqi isə odur ki, silah dərhal, tütün isə aram-aram, aldada-aldada insanın canını alır. İstifadəçilər isə bunu bilsələr də, bu bəladan əl çəkmək və ya buna cəhd etmək istəmirlər, bəzən də bacarmırlar.

### İlk cəzanı tütünü Avropaya ilk gətirənlərdən biri aldı

Nə qədər qəribə görünsə də, tütünə görə ilk cəzaya da elə onun Avropada ilk istifadəçisi - Kolumbun ekspedisiya üzvlərindən biri olan ispan əsilli Rodriqo Deheres məruz qalıb. O, qitəyə yeni gətirilmiş qərib bitkinin dadına birinci özü baxmaq istəyir. İspanlar onun ağzından buraxdığı tüstünü görəndə çox təəccüblənirlər, düşünürlər ki, dənizçinin içinə şeytan girib. Naməlum bitkidən istifadə etdiyinə və ağzından tüstü üfürdüyünə görə o, inkvizisiya hakimləri tərəfindən həbs olunur. Bəlkə də bir müddətdən sonra Rodriqonu həbsdən azad edib bu bitki ilə yaxından "tanış" olmasaydılar, bu gün tütün dünyanı belə ağuşuna almazdı, heç bu qədər ölümün səbəbi də olmazdı.

Artıq bu gün beynəlxalq təşkilatlar, ayrı-ayrı qabaqcıl ölkələr tütünlə mübarizə aparmaq, bəşəriyyəti xilas etmək üçün çıxış yolu axtarır, yeni qanunlar qəbul edir, cəzalar tətbiq edirlər. 1977-ci ildən bəri dünyanın bir sıra ölkəsində tütündən imtina və istifadənin məhdudlaşdırılması ilə bağlı çoxsaylı tədbirlər görülür. 40 ildir ki, Amerika Onkologiya Cəmiyyətinin təklifi ilə bir sıra ölkələrdə siqaretin əks-təbliğatı aparılır. Nəticə olaraq bir neçə ölkədə siqareti atmaq istəyənlərə yardım mərkəzləri, pulsuz telefon məsləhət xidmətləri yaradılıb. Müraciət edən şəxslərin siqaretdən imtina müddətində üzləşdikləri çətinliklərdən keçmələrinə psixoloji, mənəvi və tibbi yardım göstərilir, onlar üçün fərdi "yol xəritələri" çəkilir və s. 2003-cü ildə Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qəbul edilən (2005-ci ildə qüvvəyə minib) Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyası isə bəşəriyyətin tütün məmulatlarının istehsalını, satışını və istifadəsini tənzimləyən ilk beynəlxalq razılaşma və tütün "epidemiyası"na qarşı qlobal mübarizədə ilk addım oldu. Elə həmin ildən Azərbaycanda bu konvensiyaya qoşuldu, bu istiqamətdə konkret addımlar atdı...

### Azərbaycanda tütündən qanunsuz istifadənin cəzası 30 manatdan 1000 manatadək artır

Bu gün Azərbaycanda əhalinin sağlamlığının qorunması, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində fəaliyyət hüquqi əsaslarla tənzimlənir. Prezident İlham Əliyevin 1 dekabr 2017-ci ildə təsdiq etdiyi "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda bunlar tam öz əksini tapıb. Elə ötən il dekabrın 29-da həmin qanunun tətbiqi barədə dövlət başçısı fərman da imzalayıb.

Sənəddə tütünün ziyanı qeyd olunaraq onun istifadəsinin məhdudlaşdırılması, məsələ ilə bağlı aidiyyəti qurumların üzərinə düşən öhdəliklər, tütün çəkilməsinə icazə verilməyən yerlər və bu istiqamətdə digər çoxsaylı məqamlar yer alıb. Eyni zamanda, bu tələbləri pozan şəxslərin İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıması qeyd olunub və konkret cərimələr müəyyən edilib. Belə ki, dəmir yolu nəqliyyatında, dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkməyə görə 40 manat, stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda siqaret çəkməyə görə 50 manat, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkilməsinə görə 40 manatdan 50 manatadək məbləğdə cərimə müəyyən olunub. Hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkməyə görə isə 100 manat məbləğində cərimə nəzərdə tutulub. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə isə siqaret çəkənlər 30 manat məbləğində cərimə ediləcəklər. Həmçinin İnzibati Xətalar Məcəlləsinin 212.2. maddəsinə əsasən müəssisələrdə, idarələrdə, təşkilatlarda siqaret çəkmək üçün xüsusi yerlərin ayrılmasının və görünən yerlərdə "siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə vəzifəli şəxslər 400 manat, hüquqi şəxslər 1000 manat məbləğində cərimə olunacaqlar.



Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bu barədə danışarkən siqaretin ziyanlı olmasını xüsusilə vurğuladı: "...Həm insanlar zəhərlənir, həm də pul gedir. Ona görə bu məsələyə çox ciddi baxmaq lazımdır. Əminəm ki, indi qəbul edilmiş qanun siqaret çəkənlər üçün, əlbəttə, yeni bir tövsiyə olacaq ki, camaat bu pis vərdişdən əl çəksin. Bilirsiniz, bu, xəstəlikdir, bədbəxtlikdir, çox pis vərdişdir. Bunun insan orqanizminə heç bir xeyri yoxdur, ziyandan başqa..."

Göründüyü kimi, qanunda sözügedən məsələ ilə bağlı bütün incəliklər nəzərə alınıb. İndi bu istiqamətdə qarşıda duran ən vacib məsələ icra mexanizminin təşkili, aidiyyəti qurumların üzərinə düşən işi layiqincə icra etməsi və real fəaliyyətə başlanılmasıdır. Təbii ki, insanlar özləri də aktiv olmalı, tütündən istifadənin onların sağlamlıqlarına necə təsir etməsi haqqında daha çox düşünməli, qanunun tələblərinə əməl etməlidirlər ki, həm sağlam yaşasınlar, həm də ziyana düşməsinlər...

***Elnur HADIYEV,***
***"Azərbaycan"***

## "Azərişıq" ASC 2018-ci ildə Yasamal rayonu, M.Muxtarov və Ç.Mustafayev küçələrinin kəsişməsində yerləşən 110/35/10 kV-luq "Bayramzadə" yarımstansiyasının və ofis binasının tikintisi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**

Yasamal rayonu, M.Muxtarov və Ç.Mustafayev küçələrinin kəsişməsində yerləşən 110/35/10 kV-luq "Bayramzadə" yarımstansiyasının və ofis binasının tikintisi işlərinin satın alınması - **700 manat**

**"Azərişıq" ASC**
**VÖEN:** **9900069391**
**Hesab №:** **AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı:** **Kapital Bankın Gənclik filialı**
**Kod:** **200189**
**VÖEN:** **9900003611**
**Müxbir hesab №:** **AZ37NABZ01350100000000001944**
**SWIFT Code:** **AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93, daxili (22-83))*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir ***(www.tender.gov.az)***.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 aprel 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20 aprel 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 aprel 2018-ci il tarixində saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

*"Regionların inkişafına dəstək Qrant Proqramı" çərçivəsində "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində Peşə Tədris Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi" layihəsi üzrə*

*açıq tender elan edir*

**İşlərin yerinə yetirilməsi müddəti 6 aydır.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: qiymət, keyfiyyət, avadanlıq və proqram təminatının texniki xüsusiyyətləri, mühafizə imkanları, istifadə və xidmət rahatlığı, analoji layihələr üzrə təcrübə, o cümlədən digər qurumlarda tətbiqi, texniki imkanlar, kadr potensialı.

Tenderdə iştirak etmək istəyənlər 2000 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi**
**Əlaqələndirici şəxs: Vəliyeva Ülviyyə Fazil qızı, tel: 493-88-67 (daxili: 23-71)**

**Təşkilatın adı:** **İqtisadiyyat Nazirliyi**
**VÖEN:** **1700012751**
**Hesab:** **AZ82CTRE00000000000002098501**
**Bank rekvizitləri:** **Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod:** **210005**
**M/h:** **AZ41NABZ01360100000000003944**
**VÖEN:** **1401555071**
**SWİFT:** **CTREAZ22**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat:** **142340**

**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi**
**Telefon: 493-88-67; Faks: 498-85-19**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilər, sosial və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və sosial müdafiə orqanlarından arayışlar;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *müqaviləni yerinə yetirmək üçün tender iştirakçılarının lazımi texniki imkanları haqqında arayış;*
- *şərtlər toplusunda nəzərdə tutulan digər tələblər.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **28 mart 2018-ci il saat 17:00-dək,** tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **6 aprel 2018-ci il saat 17:00-dək** İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət evi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri **9 aprel 2018-ci il saat 15:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.03.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Düzəliş

"Azərbaycan" qəzetinin 23 fevral 2018-ci il tarixli sayında Xəzər Sahil Sularına Ekoloji Nəzarət və Mühafizə Mərkəzinin tender elanının son 3 abzası aşağıdakı kimi oxunmalıdır:

*"İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05.04.2018-ci il saat 10:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13.04.2018-ci il saat 10:00-a qədər, Bakı şəhəri, Binəqədi rayonu, Novxanı qəsəbəsi, Sarıqaya küçəsi ünvanında təqdim etməlidirlər.*

*Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.*

*İddiaçıların təklifləri 16.04.2018-ci il saat 10:00 tarixində Bakı şəhəri, Binəqədi rayonu, Novxanı qəsəbəsi, Sarıqaya küçəsi ünvanında açılacaqdır.*

*İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər."*

***Tender komissiyası***

## Erməni diaspor təşkilatlarının keçirdiyi tədbir iflasa uğradılıb

Erməni diaspor təşkilatlarının Avropa Parlamentində keçirdiyi tədbir azərbaycanlı gənclərin səyləri nəticəsində iflasa uğradılıb. AZƏRTAC xəbər verir ki, sırf təbliğat xarakteri daşıyan tədbirdə erməni millətçiləri və işğalçı rejimin təmsilçiləri ilə birgə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər etmiş Avropa Parlamentinin deputatı Lars Adaktusson, tanınmış ermənipərəst S.Markedonov və digər bu kimi "müstəqil mütəxəssislər" iştirak ediblər.

Tədbirdə çıxış edənlərin gülünc fikirlərinə etiraz əlaməti olaraq, azərbaycanlı gənclər "Xocalıya ədalət!" şüarının əks olunduğu plakat qaldırıblar. Tədbirin təşkilatçıları azərbaycanlı gənclərə hücum çəkərək, plakatı onlardan kobudcasına almağa çalışıb, çaxnaşma yaradıblar.

Azərbaycanlı gənclərin çıxışlarında Xocalı soyqırımını törətmiş, azərbaycanlılara qarşı etnik təmizləmə aparmış Ermənistanın işğalçı mövqeyi ifşa edilib, bu səpgidə suallar ünvanlandırılıb. Tədbirin ermənilərin nəzarətindən çıxdığını görən təşkilatçılar hətta onun sosial şəbəkələr vasitəsilə canlı yayımını dayandırmağa məcbur olublar.

Beləliklə, erməni diasporunun Avropa Parlamentinin binasında keçirilmiş "yığıncağını" beynəlxalq konfrans kimi təqdim etmək cəhdləri vətənpərvər Azərbaycan gənclərinin mütəşəkkil səyləri nəticəsində tam iflasa uğrayıb.

## Azərbaycan Turizm və Menecment Universiteti

(311220 yarımmaddəsi üzrə) digər maşın və avadanlıqların kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99455) 203 25 33 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 02 mart 2018-ci il saat 17:00-dək qəbul olunur.

**Ünvan: AZ1072, Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23,**
**e-mail: p.isgandarov@atmu.edu.az**

## AMADA kotirovkalar sorğusunun nəticələrini elan edir

*"Azərbaycan Milli Antidopinq Agentliyi" 16.02.2018-ci il tarixində elan edilmiş və 21.02.2018-ci il tarixində keçirilmiş kotirovka sorğusunun nəticələrini elan edir:*

**LOT 1.** Çap işləri - Max Print MMC
**LOT 2.** Nəqliyyat (taksi) xidmətləri - Taxi Services MMC
**LOT 3 .** Promo (təşviq) materialları - Max Print MMC
**LOT 4.** Tərcümə xidmətləri - Əmirbəyova Nailə
**LOT 5.** Dizayn xidmətləri - Məmmədzadə Ülkər Namiq qızı və Peachline MMC

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Əfqanıstanda talibləri 30 avtobus sərnişinini oğurladılar

"Taliban" ekstremist hərəkatının silahlıları Əfqanıstanın cənubunda 30 avtobus sərnişinini oğurlamışlar. Bu barədə "Pajvak" agentliyi xəbər verir.

"Tolo News" telekanalının xəbərinə görə, hadisə srağagün baş vermişdir. Avtobus Qəndəhar və Uruzqan əyalətləri arasında magistralda hərəkət edərkən taliblər hücum edib sərnişinləri oğurlamışlar.

Qəndəhar polisinin nümayəndəsi məlumatı təsdiqləmişdir.

Qeyd edək ki, son vaxtlar Əfqanıstanda vəziyyət nəzərəçarpacaq dərəcədə gərginləşmişdir. "Taliban" hərəkatı kənd rayonlarında xeyli ərazi zəbt etdikdən sonra iri şəhərlərə hücuma başlamışdır. Ölkədə həmçinin İŞİD terrorçu qruplaşmasının nüfuzu artmışdır.

## Pentaqon: bir neçə ildən sonra kosmosda müharibə başlayacaq



Kosmosda müharibə bir neçə ildən sonra başlayacaq və amerikalıların kosmik məkanda üstünlüyə nail olması lazımdır. Bu bəyanatla ABŞ hərbi hava qüvvələri qərargahının rəisi Devid Qoldfeyn çıxış etmişdir.

Qoldfeyn Floridada Hərbi Hava Assosiasiyasının illik simpoziumunda və Texnologiyalar Sərgisində çıxış edərkən demişdir: "Hesab edirəm ki, bir neçə ildən sonra kosmosdan zərbələr endirəcəyik. Biz (hərbi hava qüvvələri) elə qoşun növüyük ki, bu yeni ərazidə birgə hərbi əməliyyatlara rəhbərlik etməlidir. Ölkə bunu tələb edir".

ABŞ hərbi hava qüvvələrinin kosmik proqramlar üçün büdcəsi cari ildə 7,75 milyard dollardır ki, bu da ötənilki büdcədən 20 faiz çoxdur. Gələn il büdcəni 8,5 milyard dollara çatdırmaq planlaşdırılır.

## "Boko Haram"ın 1130 girovu azad edildi



Nigeriya və Kamerun hərbçilərinin keçirdikləri birgə əməliyyatın gedişində "Boko Haram" radikal qruplaşmasının girov götürdüyü 1130 dinc sakin azad edilmişdir. Girovların əksəriyyəti məktəbli qızlar idi. Bu barədə "əl-Cəzirə" telekanalı Nigeriya ordusunun nümayəndəsinə istinadən xəbər verir.

Çad gölü rayonunda keçirilmiş əməliyyat zamanı həmçinin qruplaşmanın 37 silahlısı öldürülmüş, terrorçuların bir neçə düşərgəsi və silah anbarı məhv edilmişdir. Eyni zamanda dörd əldəqayırma bomba zərərsizləşdirilmişdir.

"Frans Press" agentliyinin xəbərinə görə, "Boko Haram"ın silahlıları ötən ayın 19-da Nigeriyanın şimal-şərqində, Dapçi kəndində 11 yaşadək qızların oxuduğu məktəbə hücum etmişlər. Hücumdan sonra azı 111 məktəbli qız itkin düşmüşdür. Ötən həftə CNN telekanalı və "Röyter" agentliyi itkin düşmüş uşaqların böyük bir hissəsinin aşkarlandığını xəbər vermişdi. Lakin bir müddət sonra ölkənin hakimiyyət orqanları bu xəbəri təkzib etmişdi.

## Çexiyada 50 nəfər qripdən öldü



Çexiyada qrip epidemiyası son üç həftə ərzində 50 nəfərin ölümünə gətirib çıxarmışdır. Bu barədə Dövlət Tibb İnstitutu məlumat vermişdir.

Ölənlərdən 43-nün yaşı 60-dan çox, qalanları isə 25-59 yaşda idilər. Bu müddət ərzində qripə yoluxmuş 199 nəfər xəstəxanalara yerləşdirilmişdir. Səhiyyə İnstitutunun proqnozuna görə, epidemiya hələ bir neçə həftə davam edəcək, amma pik dövrü artıq arxada qalmışdır.

Xatırladaq ki, ötən ilin fevralında ölkədə başlamış qrip epidemiyası təxminən səkkiz həftə davam etmişdir. O vaxt 300 nəfərdən çox adam xəstəxanaya düşmüş, onların 114-ü vəfat etmişdi.

## Kərkük nefti yenidən Türkiyə ərazisindən ixrac olunacaq



İraqın Baş naziri Heydər İbadi bildirmişdir ki, Kərkük vilayətindən neft ixracı bərpa olunacaq. Onun dediyinə görə, Kərkük nefti kəmərlə Türkiyənin Ceyhan limanına nəql olunacaq, ondan sonra isə dünya bazarlarına göndəriləcək.

Müvafiq saziş Bağdaddakı mərkəzi hökumətlə ölkənin şimalındakı kürd regional administrasiyası arasında əldə edilmişdir. İbadi izah etmişdir ki, "regional hökumətlə ixtilafları aradan qaldırmaq fikrindəyik". Baş nazir əlavə etmişdir ki, neft ixracı Türkiyə ilə kürd regional administrasiyası arasında da müzakirə mövzusudur.

## Atəşkəs rejimi 132 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 132 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini Gülşən Paşayevaya atası

**MƏMMƏDƏLİ PAŞAYEVİN**

və anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Humanitar Kollecinin direktoru Vaqif Əmiraslanov Davud və Məzahir Pənahovlara qardaşları

**MAHİR PƏNAHOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8916
Sifariş 569